www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 iyul 2018-ci il Bazar ertəsi № 146 (7035) Qiyməti 60 qəpik

**Xəbər**

## Azərbaycanlı gənc turist Türkiyədə şəlalədən yıxılıb öldü

yazısı səh.13-də

# ELMAR VƏLİYEVİ VURAN YUNİS HAQDA ƏN SON VƏ SENSASİON MƏLUMATLAR

Gəncə tətikçisinin papağının mənasından tutmuş, həyat yoluna qədər, heç yerdə getməyən məlumatlar bu yazıda; "Bu, qisasçılıq zəminində baş vermiş sıradan bir cinayət hadisəsi deyil, siyasi motivli terrordur"; "Bunlar Azərbaycan-Rusiya münasibətlərinə kifayət qədər ciddi zərbə vurulmasına hesablanmış addımlar ola bilər"




yazısı səh.5-də

## Ərdoğan sabah gəlir - "Türk saatı" Bakıdan başlayır

Türkiyə lideri seçkilərdən sonra ilk səfərini yenə Azərbaycana edir; buradan NATO sammitinə yollanacaq Ərdoğanın Bakıdan Brüsselə aparacağı mühüm mesaj; **Politoloq:** "Türkiyə və Azərbaycan arasında hərbi ittifaq haqda sazişin vaxtı çatıb..."

yazısı səh.8-də

**Gündəm**

### Banklar problemli kreditlərə görə məhkəmələrə müraciəti dayandırıb - səbəb




**İqtisadçı ekspertdən təklif:** "Ya dövlət büdcəsindən, ya da Neft Fondundan problemin həlli üçün vəsait ayrılmalıdır..."

yazısı səh.3-də

*Rusiyalı tanınmış analitik:*

### "Qarabağda müharibənin "donu" uzun sürə bilməz..."

yazısı səh.11-də

### Gənc yazıçının gündəmə çevrilən intihar cəhdinə ilginc reaksiyalar: şou, yoxsa?..

yazısı səh.10-da

### Paşinyanın iki ayı: "Seytnot vəziyyətində çabalaya-çabalaya qalıb..."

yazısı səh.9-da

### Jirinovskinin Türkiyədəki inauqurasiyaya dəvət almasının sirri - iki rəy

yazısı səh.9-da

### Gəncədəki qanlı olayda xarici qüvvə iddiası - kimə lazım idi...

yazısı səh.6-da

### Musa Yaqubun qızı "Yeni Müsavat"a danışdı: "Vəziyyəti yaxşılaşır"

yazısı səh.3-də

### Serj Sərkisyanın qardaşı və qardaşı qızı axtarışa verildi

yazısı səh.11-də

### Cərrah-ginekoloqdan xəbərdarlıq: "Qeysəriyyə doğuşdan 7 dəfə risklidir"

yazısı səh.13-də

### Novruz bayramında doğulan dünya ulduzu - Qrizmann "Qızıl buts" alacaqmı...

yazısı səh.14-də



*Eldar Namazov:*

### "Azərbaycan ətrafında çox ciddi proseslər gedir"

yazısı səh.7-də



### Elmar Vəliyevə yaxın deputat həmkarı Fəzail Ağamalını ittiham etdi, sərt cavab aldı

yazısı səh.4-də



*Əkrəm Həsənov:*

### "Azərbaycanda ölüm cəzası bərpa edilməlidir"

yazısı səh.6-da



## Qaçqın oliqarx intihar edib, yoxsa onu öldürüblər?

**Rusiyalı oliqarx Boris Berezovskinin böyük qızı onun atasının ölümünü araşdıran kriminalistlərin apardığı ekspertizanın yeni nəticələri barədə danışıb. Alman mütəxəssis Bernd Brinkmann iş adamının intihar etməsi versiyasını rədd edir.**

Virtualaz.org xəbər verir ki, "Qordon" nəşrinə müsahibəsində Yelizaveta Berezovskaya etiraf edib ki, əvvəlcə o, ingilis kriminalistlərə etimadla yanaşıb. Onlar yarım il ərzində oliqarxın ölüm faktını araşdırıblar və belə nəticəyə gəliblər ki, Berezovski özünə qəsd edib.

Rəfiqələrindən biri ona daha bir ekspertiza keçirməyi təklif edib. Bundan sonra qadın məşhur alman məhkəmə-tibb eksperti Bernd Brinkmana müraciət edib. Həmin kriminalist vatikanlı bankir Roberto Kalvenin ölümünün əsl səbəbini ölüm faktından 15 il sonra açıqlaya bilmişdi.

Yelizaveta Almaniyaya uçub və əlindəki bütün sənədləri ekspertə verib. Az keçmiş ekspert qadına zəng edərək, təcili geri qayıtmasını xahiş edib. "Burada hadisənin intihar olmasını göstərə biləcək heç bir şey yoxdur. Təcili gəl!" - qadın Brinkmanla söhbətini xatırlayır.

Bundan sonra məhkəmə-tibb eksperti ingiltərəli xəfiyyə ilə görüşərək gəldiyi nəticələr barədə danışıb. Eyni zamanda oliqarxın ölümünün təfərrüatlarının dəqiq müəyyənlişdirilməsinin qeyri-mümkünlüyü haqqında qərar çıxarmış məhkəmədə çıxış edib.

Berezovskaya deyir ki, oliqarxın mühafizəçisinin davranışı ilə bağlı məlumat alandan sonra onda atasının intiharı ilə əlaqədar şübhələr yaranıb. Həmin gün peşəkar "Mossad" əməkdaşı Avi qəflətən şəhərə qəhvə içməyə yollanıb. Öz yerinə isə heç bir mühafizəçini təyin etməyib və videokameraları işə salmayıb. Qayıtdıqdan sonra o, hamam otağının qapısının bağlı olduğunu görüb. Qapını sındırmayıb, bunun əvəzinə Berezovskinin köməkçisinə zəng edib.

Məşhur iş adamı Boris Berezovski 2001-ci ildə Böyük Britaniyaya mühacirət edib. Həyatının sonuna yaxın o, faktiki olaraq müflisləşmişdi və qorxunc psixoloji vəziyyətdə idi. Sahibkarın cəsədi 2013-cü ildə yaşadığı evin hamam otağında aşkarlanıb. Oliqarxın ölümünün dəqiq səbəbləri məlum deyil. Onun meyitinin yanında şərf tapılsa da, zorakılıq əlamətləri müəyyən edilməyib. Ölümündən sonra məlum olub ki, Berezovski varislərinə 3 milyard 275 milyon rubl həcmində borc miras qoyub.

## Körpələr üçün süni ağciyər hazırlandı

**Kanada və Almaniyanın bir qrup alimi tənəffüs problemləri yaşayan yeni doğulan körpələr üçün xarici süni ağciyər yaradıb. Süni ağciyər xüsusi qaz və oksigen qarışığından deyil, havadan istifadə edir.**

Musavat.com AMEA-nın saytına istinadla xəbər verir ki, yeni işləmə qanı oksigen ilə zənginləşdirən ikitərəfli məsaməli membranlardan ibarət olan mikrokanallar sistemini özündə əks etdirir. Sözügedən konstruksiyada qan nasosların köməyi ilə deyil, sərbəst şəkildə dövr edir, təzyiqin dəyişməsi nəticəsində isə qan hüceyrələrinin zədələnməsinin qarşısı alınır. Cihazın forması qanın təkrbini həmcins saxlayaraq körpələrə lazimi həcmdə çatdırılmasını təmin edir.

Alimlərin sözlərinə görə, süni ağciyərlər yeni doğulan körpələrin orqanizminin bütün zəruri tələblərini ödəmək gücündədir. Qurğunun dayanıqlılığını yüksəltmək və körpənin orqanizminə düşən yükü azaltmaq üçün fiziklər onun hazırlanmasında digər materialları da sınaqdan keçirmək niyyətindədirlər.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Dondurma alarkən bunlara diqqət edin

**"Əgər dondurma yeyərkən boğazda acılıq hissi yaranırsa, bu, onun tərkibinə yağlılığı təmin etmək üçün kərə yağı əvəzinə marqarin və yaxud bitki yağları qarışdırıldığını göstərir".**



Musavat.com gencaile.az-a istinadən bildirir ki, bunu mətbuata açıqlamasında Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov deyib. E.Hüseynov bildirib ki, dondurma dilin üzərində qoyulduqda təzə qaymaq dadı verməlidir: "Dondurmanın yağlılığını artırmaq üçün standartlara görə tərkibinə yalnız kərə yağı qarışdırılmalıdır".

AİB sədri bildirib ki, əhali dondurmanın bükülməsinə də diqqət yetirməlidir. Belə ki, əgər məhsul əzik şəkildə bükülübsə bu, onun isti temperatur rejiminə məruz qaldığını və çirkləndiyini göstərir: "İsti temperatura məruz qalan dondurmadan imtina etmək lazımdır. Bir də çalışmaq lazımdır ki, gündə 200-300 qramdan çox dondurma yeyilməsin. Əgər çox yeyilərsə, insanların bədən temperaturu aşağı düşə bilər və xəstələnər. Rəngli dondurmalar da məsləhət deyil, çünki tərkibinə bəzən rəngləndiricilər əlavə olunur".

E.Hüseynov bildirib ki, dondurmaların satış şəbəkəsində saxlanma müddəti 3 aydan çox olmasa da, məhsulu anbarlarda mənfi 18 dərəcədə 6 ay, hətta bir il saxlamaq olar.

AİB sədri məhsulun buraxılma və son istifadə tarixinə, "qaynar xətt"inin olub-olmamasına da diqqət yetirməyin vacib olduğunu da vurğulayıb.



## Bakıda özəl qəbiristanlıq: qəbir yerləri neçəyədir?

**Suraxanı rayonu, Hövsan qəsəbəsi, Quşçuluq massivi deyilən ərazidə özəl qəbiristanlıq fəaliyyət göstərir. Sakinlər iddia edirlər ki, bu qəbiristanlıq sahibkara məxsusdur və burada dəfn xərcləri dövlət və bələdiyyə məzarlıqlarından xeyli bahadır. Məhəmməd adlı bir şəxs isə iddia edir ki, bu məzarlıqda qəbir yerləri üçün konkret qiymətlər qoyulub.**

Xəzər TV qəbiristanlığın sahibi kimi adı hallanan Hacı Balağa adlı şəxs ilə də əlaqə saxlayıb. O, qəbiristanlığın ona yox, başqasına məxsus olduğunu bildirsə də, burada məzar yerinin pullu olduğunu təkzib etməyib.

Bakı Şəhəri Əhaliyə Vətəndaşlıq Xidməti Trestindən bildiriblər ki, Hövsan qəsəbəsində yalnız Dədə Qorqud qəbiristanlığı onların balansındadır. Suraxanı Rayon İcra Hakimiyyətindən isə məlumat verilib ki, sözügedən qəbiristanlıq nə onların, nə də ərazi bələdiyyəsinin tabeçiliyindədir.



## Azərbaycan Avropaya fındıq ixracını artıracaq

**Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyası Avropa bazarında ixrac coğrafiyasını genişləndirmək niyyətindədir. Bunu Trend-ə assosiasiyanın sədri İsmayıl Orucov deyib.**

Onun sözlərinə görə, ötən həftə AZPROMO xətti ilə İsveçrəyə ixrac missiyası baş tutub. Bu missiyada təqribən 12 yerli istehsalçı iştirak edib: "Məhsulun ixracı məsələsində biosertifikatın olması vacibdir və bu ixrac missiyası çərçivəsində həmin sertifikata sahib yerli ixracatçı ilə ilkin razılıq əldə olunub. Ötən il İsveçrəyə ixracın ümumi həcmi 22 ton təşkil edib. Bu il biz bu göstəricinin artacağını gözləyirik. Bundan başqa, Avropa bazarında ixrac coğrafiyasını genişləndirməyə çalışacağıq. Oktyabr ayında ixracatçılar SIAL PARIS sərgisində iştirak edəcək".

İ.Orucov bildirib ki, ötən il fındıq ixracı 20 842 tona bərabər olub. Fındıq idxalçıları arasında birinci yerdə İtaliya qərarlaşıb. Bu ölkəyə təxminən 9 min ton təmizlənmiş meşə fındığı tədarük edilib. İkinci yerdə Rusiya (6 min tondan çox), üçüncü yerdə Almaniya (3 min tondan çox) qərarlaşıb: "Biz indi bazarı şaxələndirməyə və digər bazarlara çıxış əldə etməyə çalışırıq. Biz artıq Dubaya və Tunisə məhsul tədarük etməyə başlamışıq".

Ölkədə fındıq istehsalı həcmlərinə gəldikdə isə assosiasiya sədri bildirib ki, əgər hava şəraiti əlverişli olarsa, fındıq istehsalını ötən illə müqayisədə 5-10 faiz artıraraq 60-65 min tona çatdırmaq mümkün olacaq".



## Bu gün Bakıda 35° olacaq

**Azərbaycanda iyulun 9-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava yağmursuz olacaq, şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 24-27°, gündüz 30-35° təşkil edəcək. Abşeronun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada şimal küləyi əsəcək, dəniz suyunun temperaturu 26-27° isti olacağı ehtimal edilir.**

Cənub çimərliklərində isə - Türkan, Hövsan, Sahil, Şıxda şimal küləyi əsəcək, dəniz suyunun temperaturunun 27-28° isti təşkil edəcəyi gözlənilir.

Naxçıvan Muxtar Respublikasında günəşli hava gözlənilir, şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 35-40°, bəzi yerlərdə 42° isti təşkil edəcəyi ehtimalı var.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında yağmursuz hava olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-20°, gündüz 26-31° isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında günəşli havanın olacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 32-37° isti təşkil edəcək.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında yağmursuz hava şəraiti gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 30-35° isti, dağlarda gecə 13-18°, gündüz 25-30° isti olacaq.

Mərkəzi-Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında günəşli hava hökm sürəcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 35-40° isti təşkil edəcək.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında da hava günəşli olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-26°, gündüz 32-37° isti, dağlarda gecə 15-20°, gündüz 28-33° isti gözlənilir.

YENİ MÜSAVAT
N 146 (7035) 9 iyul 2018

# Prezident Nazirlər Kabineti ilə iclas keçirdi



**Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. APA-nın məlumatına görə, dövlət başçısı iclasda çıxış edib.**

# Banklar problemli kreditlərə görə məhkəmələrə müraciəti dayandırıb - səbəb

## İqtisadçı ekspertdən təklif: "Ya dövlət büdcəsindən, ya da Neft Fondundan problemin həlli üçün vəsait ayrılmalıdır"

**Azərbaycanda manatın devalvasiyasından sonra problemli kreditlərin məbləği artmağa başlayıb. Əvvəllər əhali gəlirinin müəyyən hissəsini kreditlərə ayırırdısa, indi bir çoxunda kreditin aylıq ödənişi ailənin gəliri həddindədir. Bu zaman isə vətəndaşın krediti ödəməsi mümkün deyil ki, bu mümkünsüzlüklər də problemli kreditlərin sayını artırır.**



Maraqlıdır, problemli kreditlərin axırı necə olacaq? Həll yolları necədir?

İqtisadçı ekspert Natiq Cəfərli "Yeni Müsavat"a açıqlamasında problemli kreditlərin həllində heç bir irəliləyişin olmadığını dedi: "Problemli kreditlərin həcmində azalmalar müşahidə olunmur. Belə kreditlərin həlli üçün iki əsas yol var. Ya müştərilər problemli kreditləri qaytarmağa başlamalıdır, ya da banklar güzəştə getməlidir ki, müəyyən irəliləyiş olsun. Hər iki tərəfdən də heç bir irəliləyiş yoxdur. Hətta bankalar uzun zamandır ki, məhkəmələrə belə müraciət etməkdən imtina ediblər. Bunun mənasız yol olduğunu gördülər. Problemli kreditlərlə bağlı məhkəməyə minlərlə iş göndərildi, heç birində normal irəliləyiş olmadı. Məhkəmə qərarlarının icrası da mümkün olmadı. Çünki vətəndaşın imkanı yoxdur ki, o vəsaiti qaytarsın. Problemli kreditlərin çoxu valyuta kreditləri ilə bağlı yaranmış problemlərdir. Bir gecənin içində iki devalvasiya oldu və insanların dollarla götürdüyü kreditlər onlardan asılı olmayan səbəblərdən iki dəfədən çox bahalaşdı. Dövlətdə buna görə məsuliyyət hissi yaranmalıydı, çünki qərarı hökumət almışdı. Amma hökumətin aldığı qərarın məsuliyyəti vətəndaşın çiyninə düşdü. Ona görə də problemli kreditlərin həlli üçün də heç bir irəliləyiş görünmür".

İqtisadçı problemli kreditlərin həlli yollarını izah edir: "Problemli kreditlərin həlli üçün iki əsas yol var. Ya dövlət büdcəsindən, ya Neft Fondundan müəyyən vəsait ayırıb, problemli kreditlərin həlli üçün sərf olunmalıdır. Amma nə büdcədən, nə də Neft Fondundan belə bir vəsaitin ayrılması ilə bağlı heç müzakirə və qərar mexanizmləri yaradılmayıb. Bu da ona gətirib çıxaracaq ki, problemli kreditlər həcmi durmadan artacaq. Son zamanlarda problemli kreditlərin artım sürəti azalıb. Bu da onunla əlaqədardır ki, kredit götürən insanların və şirkətlərin sayı azalıb. Kredit götürənlərin sayı azaldıqca geri dönüşü mümkünsüz kreditlərin həcmində də artım tempi aşağı düşüb. Amma bu, o demək deyil ki, problemli kreditlərin azalması baş verir. Əkinə, belə kreditlərin sayı aybaay artır. Son 3 ildə yüksəlmə xətlə gedir. Dövlət büdcəsindən, ya Neft Fondundan təqribən 5 milyard manata yaxın vəsait ayrılıb, bu problemli kreditlərin məsələsi bir dəfəlik çözülməsə, nə vətəndaşlar, nə banklar öz güclərinə bu problemi həll edə bilməyəcəklər. Və problem də məbləğ olaraq arta-arta gedəcək".

**❑ Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**

# Musa Yaqubun vəziyyəti yaxşılaşır

**Azərbaycanın sevimli şairi Musa Yaqubun səhhəti yaxşılaşmağa başlayıb. Bu barədə şairin qızı Yaqut Yaqubova "Yeni Müsavat"a bildirib.**



"Əvvəlkinə nisbətən səhhəti yaxşılaşıb, yemək yeməyi düzəlib, həyətə girib-çıxır. Lakin çox tez yorulur. Yəni, əvvəlki enerjisi, möhkəmliyi, sağlamlığı qalmayıb. Danışığında da bir qədər problemlər qalıb. Tez yorulduğu için çox da danışa bilmir. Bir ara ümidimizi üzmüşdük ki, daha səhhəti düzəlməyəcək. Lakin şükürlər olsun ki, getdikcə yaxşılaşmağa başlayıb. Həkimlər dərmanlar yazıb, çalışırıq ki, vaxtlı-vaxtında qəbul etsin", - deyə Yaqut xanım qeyd edib.

Yaqut Yaqubova onu da deyib ki, atasının dostları, oxucuları hər zaman ona dəstək olur, vəziyyəti ilə bağlı maraqlanırlar: "Dostları, yaxınları, oxucular hər zaman ələqə saxlayır, hal-əhval tuturlar. Elə bir gün yoxdur ki, gələn, zəng edən olmasın. Hamısından razıyıq".

Şair Musa Yaqub uzun müddətdir ki, Parkinson xəstəliyindən əziyyət çəkir. Bir müddət bundan əvvəl xəstəlik şiddətləndiyi üçün şairin səhhətində ciddi problemlər yaranmış, vəziyyəti ağırlaşmışdı.

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**



# Duqin: "Türkiyə, İran və Rusiya dünyanın gələcəyini müəyyən edəcək"

**"Türkiyə, İran və Rusiya ittifaqı dünyanın gələcəyini müəyyən edəcək". Bu sözləri rusiyalı filosof Aleksandr Duqin İranın dövlət televiziyasında yayımlanan "Sərhədsiz" proqramında çıxışı zamanı deyib.**

Türkiyə, İran və Rusiyanın əməkdaşlığının başda Suriya məsələsi olmaqla bölgədəki sülhün təminatçısı olduğunu bildirən Duqin, bu əməkdaşlıq sayəsində ABŞ-ın bölgədəki strategiyalarının da uğursuzluğa düçar edildiyini qeyd edib. Duqin həmçinin, 3 ölkənin əməkdaşlığı sayəsində ABŞ-ın bölgədə nüfuz itirdiyini vurğulayıb: "Bu ittifaq dünyanın gələcəyini müəyyən edəcək. Avrasiya layihəsinin uğurla tətbiq edilməsi nəticəsində beynəlxalq ictimaiyyət tək qütblü nizamdan çoxqütblü nizama keçid edəcək və ABŞ-ın bölgədəki nüfuzu azalacaq".



# Kreml siyasətini dəyişir: Qarabağla bağlı ciddi tələb

**Həmsədrlərin bu bəyanatı gözlənilməz oldu. Çünki hamı danışıqlar prosesinin artıq dalana dirəndiyini düşünürdü.**

Bu sözləri Axar.az-a politoloq Qabil Hüseynli ATƏT-in Minsk Qrupunun rusiyalı həmsədri İqor Popovun Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün planlaşdırıldığı ilə bağlı açıqlamasına münasibət bildirərkən deyib. O bildirib ki, kifayət qədər mürəkkəb bir vəziyyət yaranıb.

"Ermənilər danışıqlar prosesinin davam etməsi üçün şərtlər irəli sürürlər. Halbuki indiyə qədər danışıqlar prosesini yeniləmək və yaxud ona yeni impuls vermək üçün heç vaxt Ermənistan şərt irəli sürməyib. Paşinyan Serj Sərkisyandan da mürəkkəb mövqe ortaya qoyaraq, danışıqlar prosesini dalana dirəyir. Onu bu dalan vəziyyətindən necə çıxarmağın yollarını axtarırlar", - deyə o bildirib.

Politoloq vurğulayıb ki, danışıqlar prosesinin yenilənməsində Rusiya daha böyük rol oynamağa başlayıb: "Son dövrlərdə Rusiyanın Qarabağla bağlı siyasətində müəyyən qədər dəyişikliklər var. Bunlardan biri ondan ibarətdir ki, Rusiya danışıqlar prosesinin təzələnməsi üçün heç bir tərəfin şərt irəli sürməməsini tələb edir. Zənnimcə, bu, kifayət qədər təqdirəlayiq prosesdir. Çünki Rusiya Ermənistanın bu anormal, heç bir əsası olmayan iddialarını qəbul etmir. Digər tərəfdən, bu yaxınlarda Rusiya tərəfi təqdir ediləsi daha bir addım atdı. Bir qrup millət vəkili, politoloq, ekspert və jurnalisti Azərbaycana göndərdi. Söhbət Cocuq Mərcanlıda keçirilən konfransdan gedir. Bu konfrans ictimai şüuru kifayət qədər dalğalandırdı. Ermənistanda ciddi qıcıq doğurdu. Hətta Moskvada yayımlanan televiziya proqramlarının birində Duqin və onun komandasının, eləcə də Dövlət Dumasının bir sıra deputatlarının Azərbaycanda Cocuq Mərcanlıdakı açıqlamalarına qəzəbli reaksiyalar oldu. Amma bütün bunlara baxmayaraq, Duqin və Azərbaycana gəlmiş deputatlar həmin qəzəbli çıxışların cavabını verdilər. Duqinin bir ifadəsinə diqqət çəkmək istəyirəm: Rusiya Ermənistanın söylədikləri ilə oturub-duracaqsa, bu, Rusiya üçün tragediya demək olar. Yəni erməni meylli, etnik mənşəyi erməni olan adamların Moskvanı yönləndirməyə çalışmaları tragediyaya gətirib çıxarar. Bu, çox ciddi məna kəsb edən ifadədir. Erməni lobbisinin Rusiyada meydan sulamasına və onun Rusiya siyasətini yönləndirməsinə qarşı səsləndirilmiş fikirdir".

Politoloq vurğulayıb ki, son zamanlar Rusiyanın Azərbaycan və Rusiya arasındakı strateji əlaqələri yeni keyfiyyət mərhələsinə keçir: "Rusiyanın bunu istəməsi də diqqətçəkən məqamlardandır. Azərbaycanın Cənubi Qafqazda Rusiyanın əsas müttəfiqi olmasını elan etmələri çox əhəmiyyətli hadisədir. Ermənilərin bunu sakitliklə seyr edəcəklərini düşünmürəm. Rusiyada Azərbaycanla bağlı münasibətlərdə dəyişiklik istəyi var. Bu istək hələ ki, bir neçə deputatın, politoloqun səviyyəsində özünü büruzə verirsə, daha sonradan geniş rezonans doğuracaq. Zənnimcə, belə mürəkkəb proseslərin getdiyi vaxtda danışıqlar prosesinin yenilənməsini də Minsk Qrupunun həmsədrlərinin dili ilə Rusiya dedi. Cocuq Mərcanlıda da Duqin 5 rayonun hər hansı bir şərt irəli sürülmədən Azərbaycana qaytarılmalı olduğunu vurğuladı".

Politoloqun sözlərinə görə, danışıqlar prosesi yenilənə bilər: "Danışıqlar prosesində Kazanda əldə edilmiş razılaşmalara uyğun olaraq, 5 rayonun hər hansı bir şərt irəli sürülmədən Azərbaycana qaytarılması haqqında müzakirələr gedə bilər. Bu, ermənilərdə müəyyən həyəcan doğuracaq. Əgər Rusiya təzyiqlər göstərsə, Ermənistanda danışıqlar prosesinin yenilənməsi və 5 rayon məsələsinin yenidən gündəmə gətirilməsinə kimsə müqavimət göstərə bilməyəcək. Bir şərtlə ki, Rusiyanın mövqeyində ardıcıllıq olsun, danışıqlar prosesini yeniləmək istəsin. Bu prosesdə Dağlıq Qarabağın hüdudlarından kənardakı Azərbaycana mənsubluğu heç bir müzakirə doğurmayan rayonların öz sahibinə qaytarılması məsələsi də yenilənmiş olacaq. Doğrudur, Ermənistan buna Dağlıq Qarabağın statusunun müəyyən edilməsi məsələ ilə cavab verməyə çalışa bilər. Amma Rusiyanın 5 rayon məsələsində Dağlıq Qarabağın statusunun müzakirə edilməsini gündəmdən çıxarması mümkündür. Mən bunu bir ehtimal kimi söyləyirəm. Çünki son atılan addımlar mütləq bununla müşahidə olunmalıdır ki, ortada bir nəticə olsun. Əks təqdirdə proseslər yenidən donar və bölgədə sülh prosesinin alternativi olan müharibə variantı gündəmin aparıcı mövzusuna çevrilər".

YENİ MÜSAVAT
N 146 (7035) 9 iyul 2018

# Elmar Vəliyevə yaxın deputat həmkarı Fəzail Ağamalını ittiham etdi, sərt cavab aldı

## "Sənin mənə dərs keçməyə nə səviyyən, nə də inkişafın çatır..."

**İyulun 3-də axşam saatlarında silahlı hücuma məruz qalaraq ağır yaralanan Gəncənin icra başçısı Elmar Vəliyevin yaxın adamı, deputat Naqif Həmzəyev həmkarı, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalını sərt ittiham edib. O, bu barədə öz facebook səhifəsində status paylaşıb.**



Həmin statusu təqdim edirik: "Deputat Fəzail Ağamalı dövlət məmuruna qarşı törədilən terror aktına münasibət göstərmək əvəzinə "İcra başçısı xalqın yanında olmalıdır. Onun yanında mühafizəçinin nə işi var?" deyir''. Fəzail Ağamalı Elmar Vəliyevin Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı işlədiyi son 7 ilə nəzər salsa, Gəncənin yeni tarixini vərəqləsə, məmur-vətəndaş münasibətlərinin necə olduğunu aydın görə bilər. Elə də böyük olmayan 7 il ərzində ölkədə ikinci bir şəhər tapılmaz ki, Gəncə kimi inkişaf etsin. Şəhərin elə bir ərazisi yoxdur ki, orada təmir, abadlıq, quruculuq işləri getməsin. Elmar Vəliyev şəhərdə gedən bütün abadlıq-quruculuq işlərinə birbaşa özü nəzarət edib, daim xalqla təmasda olub. İstənilən vaxt şəhər sakinləri icra başçısına problemləri ilə bağlı müraciət ediblər. "Hadisənin üzərində xüsusi dayanmaq istəməzdim", deyən Fəzail Ağamalıdan xahiş edərdik ki, məmur-vətəndaş münasibətlərinin ən yaxşı nümunəsi olan Gəncə şəhərində mütəmadi keçirilən vətəndaş qəbullarını nəzərdən keçirsin və Gəncədə həyata keçirilən müsbət işlərə kölgə salmasın".

Qeyd edək ki, bundan öncə də E.Vəliyevə yaxın olan Yevlaxın deputatı İlham Məmmədov F.Ağamalını tənqid edərək, bu fikirləri səsləndirib: "Fəzail Ağamalı bilməlidir ki, Elmar Vəliyev kabinetdə oturmur. O, hər zaman insanların içərisində olur, tikinti meydanlarını gəzir, şəhərdə aparılan quruculuq işlərinə nəzarət edir və tapşırıqlarını verir. Belə bir halda Fəzail Ağamalının bu cür fikirlər səsləndirməsi təəssüf doğurur. Fəzail Ağamalı bilməlidir ki, Elmar Vəliyev xalqın içində olmasaydı, bu hadisə də baş verməzdi".

Məlumat üçün bildirək ki, F.Ağamalının icra başçısına yaxın həmkarları tərəfindən hücuma məruz qalması təsadüfi deyil. Belə ki, günlər öncə "Yeni Müsavat"a açıqlamasında deputat sui-qəsdə məruz qalan E.Vəliyev barəsində bu sözləri deyib: "Bütün Azərbaycan cəmiyyətinə bəllidir ki, Elmar Vəliyev istər Yevlaxda, istərsə də Gəncədə məmur olanda bu cür davranışlar edib. Bu barədə internet resurslarında yayılan videoları izləmək kifayətdir. Əlbəttə ki, bu, Azərbaycan məmuruna yaraşan davranış deyil, hansı ki, sonda bu cür olaylara gətirib çıxarır. Qubada, İsmayıllıda baş verən hadisələr artıq məmurun güllələnməsinə qədər gəlib çatıb. Səbəb isə məmurun özünü apara bilməməsidir. Bu, əlbəttə ki, ölkə rəhbərinin siyasətinə zidd olan bir vəziyyətdir. Bu cür hadisədən nəticə çıxarılmalıdır və ümidvar olmaq istərdim ki, hadisə tam obyektiv olaraq araşdırılacaq. Əlbəttə ki, cinayətə yol verən şəxs Azərbaycan qanunları əsasında məsuliyyət daşımalı, eyni zamanda icra başçısını hansı səbəbdən güllələyib, bu məsələ tam araşdırılmalıdır".

Partiya sədri "Yeni Müsavat"a açıqlamasında E.Vəliyevin "deputatları"na sərt cavab verdi: "Açığı, Elmar Vəliyevə olan sui-qəsdin ətrafında fikir mübadiləsinin aparılmasına tərəfdar deyiləm. Təəssüf edirəm ki, həmkarım Naqif Həmzəyev sosial şəbəkələri izləmir. İzləyirsə belə, o, deməli, sosial şəbəkələrə əhəmiyyət vermir. Sadəcə olaraq, mənsub olduğu komandanın maraqlarına uyğun addımlar atır və bu da gözləniləndir. Onu əslində qınamıram. Gəncədə son illərdə gedən quruculuq işlərini, inkişafı Elmar Vəliyevin adına deyil, birbaşa ölkə prezidentinin siyasətinə bağlayıram. Deyir ki, elə bir şəhər göstərin ki, son 7 ildə Gəncə qədər inkişaf etsin. Mən nümunəni Sumqayıtdan göstərirəm. Hörmətli həmkarım bu şəhərə getsin və şəhərin gözəlliyinin, inkişafının şahidi olsun. Digər rayonlarda da bu inkişaf var. Sadəcə, nümunə kimi Sumqayıtın adını çəkdim. Hər iki deputatı Naxçıvana dəvət edirəm. Görsünlər ki, orada quruculuq, abadlıq işləri hansı səviyyədə aparılır. Naqif hələ çox gəncdir. Təəssüf edirəm ki, o, ölkə prezidentinin həyata keçirdiyi quruculuq işlərini, inkişafı Gəncənin icra başçısının adına bağlayır. Nazirindən tutmuş icra başçısına qədər istənilən məmur prezidentin siyasətini həyata keçirməyə məcburdur. Əgər o bunu etmirsə, hakim komanda da yer almalı deyil. Gəncədə Elmar Vəliyevdən qabaq da işlər gedib. Bundan sonra da işlər gedəcək. Xaçmazı da nümunə gətirərdim. Bu şəhərin də gözəlliyindən zövq alırsan. Hörmətli həmkarım yaxşı olardı ki, bu şəhərə də baş çəkərdi. Belə faktları çox sadalaya bilərəm. Elmar Vəliyev məmur kimi ölkə başçının tapşırıqlarını icra etməyə səy göstərib. Bununla bağlı lazımı addımlarını atıb. Milli Məclisin gənc üzvüdür. Gələcəkdə ola bilsin ki, qabiliyyətinə və bacarığına görə ona yüksək vəzifələr tapşırılsın. Xalqla məmur arasında baryer olmalı deyil. Yüksək səviyyəli sağlam münasibətlər olmalıdır. Bunu prezidentin idarəçilik fəlsəfəsi tələb edir. Mən qeyri-adi hansı fikirləri söyləmişəm ki, bu qədər narazılıq doğurur? Bir daha təkrar edirəm ki, məmur bu məsuliyyəti boynuna götürürsə, bunun arxasında xalqa xidmət dayanır. Bu məsələnin Elmar Vəliyevə qarşı törədilən cinayətlə əlaqələndirməyin özünü başa düşmürəm. İcra başçısına qarşı cinayət törədilib. Onunla bağlı bu və ya digər şəkildə narazılıqlar varsa, bu formada həll olunmalı deyil. Azərbaycan hüquqi dövlətdir. İstənilən vətəndaş icra başçısından, hər hansı bir məmurdan narazıdırsa, bunun hüquqi müstəvidə həlli var. Məhkəmə sisteminə narazı vətəndaşın inamı yoxdursa, o zaman ölkə prezidenti var. Müraciətlərə uyğun olaraq, hər zaman konkret addımlar atılır. KİV-lər vasitəsilə məmurun ədalətsizliyi önə çəkilə bilər. Bütün bunların hamısı ölkə rəhbərinin diqqətində olur və o məsələlər öz həllini tapır. Necə ki, cənab prezident zamanında KİV-lərin ən yaxın dostu olduğunu bildirib. Bir çox məsələləri mətbuatdan aldığı informasiyalar vasitəsilə də həll etdiyini söyləyib. Kimsə kimisə hansısa narazılığa görə güllələyirsə, bu qətiyyən yolverilməzdir, bu cinayətdir. Ona heç bir halda haqq qazandırmaq mümkün deyil. Elmar Vəliyevlə bağlı bir neçə sayta demişəm ki, bu müzakirələri dayandırmaq lazımdır. Lakin təəssüflər olsun ki, Elmar Vəliyevə yaxın olan dairələr bu məsələni gündəmdə saxlamağa çalışırlar. Bir daha onlara xəbərdarlıq edirəm ki, dayanın, lütfən. Artıq ölkənin yüksək səviyyəli hüquq mühafizə orqanlarının birgə ilkin məlumatları dərc olunub. Məsələyə ilkin aydınlıq da gətirilib, istintaq gedir. İstintaqın gedişinə bu və ya digər şəkildə fərziyyələrlə, sözlərlə kölgə salmalı deyilik. İmkan verməliyik ki, hüquq mühafizə orqanları məsələni sona qədər çözsünlər. Əminəm ki, hüquq mühafizə orqanlarımız hər zaman olduğu kimi dövlətin yanındadırlar, dövlətin onların üzərinə qoyduğu vəzifələri yüksək peşəkarlıqla yerinə yetirirlər. Sui-qəsdlə bağlı gedən istintaq sonunda məsələnin əsl təfərrüatlarını ortaya qoyacaq. Bu cür yanaşmalara, müraciətlərə son qoyulmalıdır".

F.Ağamalı fikirlərinə bu cür davam etdi: "Bundan öncə hörmətli həmkarım İlham Məmmədov fikirlərini söylədi. Ona dedim ki, İlham, cənab Məmmədov, İlham müəllim, bu məsələləri dayandırın. Sən deyirsən ki, Fəzail Ağamalı bilməlidir, bilməlidir, bilməlidir, axı sənin mənə dərs keçməyə nə səviyyən, nə də inkişafın çatır. İndi bu uşaq mənə iradlar tutur. Ona deyirəm ki, səndən daha çox Elmar Vəliyevə atılan gülləni ittiham edirəm, özü də təmənnasız, konyunkturadan uzaq. Bunun hansı səbəbdən baş verməsindən asılı olmayaraq, Azərbaycan məmuruna qarşı atılan gülləni xəyanət hesab edirəm. Mən insan şəxsiyyətinin alçaldılmasının tamamilə əleyhinə olan şəxsəm. Xüsusi olaraq məmur əgər vətəndaşları, özlərindən aşağı pillədə olan adamları alçaldırsa, onun şəxsiyyətini təhqir edirsə, bu, xüsusi olaraq yolverilməzdir. Məmurlar özlərinin yüksək əxlaqi dəyərləri, mədəniyyəti, insanlara davranış nümunələri ilə xalqına və dövlətinə xidmət etməlidir. Elmar Vəliyev icra başçısı olarkən Gəncədə vətəndaşlarla arasında problem yaradıbsa, bu mənlik deyil. Bunu hər kəs bilir. Problemdən xəbərsiz insan yoxdur. İstəməzdim ki, icra başçıları vətəndaşlarla problem içərisində yaşasın. İcra başçısı siyasi vəzifədir. Onlar vətəndaşların aşağı, yuxarı təbəqələrinin davranışlarına uyğun olaraq addımlar atmağı bacarmalıdırlar. Çünki o prezidentin həmin şəhərdə, rayonda səlahiyyətli nümayəndəsidir. O vəzifəsinin öhdəsindən gəlməyə məcburdur. Əgər bunu edə bilmirsə, vəzifədə işləməli deyil. Bunlar şəxsi mövqeyimdir. Bir daha sizin qəzetiniz vasitəsilə deyirəm, siz də daxil, bütün mətbuat orqanları bir daha bu mövzuda mənə müraciət etməsinlər. Sizlər müraciət edəndə məcburam ki, suallarınızı cavablandırım. Bir daha xüsusi olaraq vurğulayıram ki, Azərbaycan hüquq-mühafizə orqanlarının son bəyanatından sonra bir çox məsələlərə aydınlıq gətirilib. Burada əlavə şərhlərə ehtiyac yoxdur".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Diplomatlar Dilqəm Əsgərovun anasının evini ziyarət etdilər



**9 iyul Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü münasibətilə Xarici İşlər Nazirliyinin 50 nəfərə yaxın əməkdaşı Tərtər rayonunda - qoşunların təmas xəttində olub. Musavat.com XİN-in mətbuat xidmətinə istinadən xəbər verir ki, səfərdə məqsəd təmas xəttindəki vəziyyət, ön xətdə xidmət edən əsgər və zabitlər, habelə həmin əraziyə yaxın yaşayan yerli sakinlərin gündəlik həyat şəraiti ilə yerində yaxından tanışlıq olub.**

Səfər həmçinin, Tərtər rayonunun tərkibinə daxil edilən Ağdərə rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 25-ci ildönümünə təsadüf edib. Səfər çərçivəsində XİN əməkdaşları Şıxarx kəndində məcburi köçkünlər üçün yeni tikilmiş qəsəbə, ermənilərin Qarabağa köçürülməsinin 150 illiyi münasibətilə 1978-ci ildə tikilmiş və sonradan ermənilər tərəfindən dağıdılmış Marağa-150 abidəsinə baş çəkiblər. Sonra XİN əməkdaşları Tərtərin Qapanlı kəndində olublar. 2016-cı ilin aprel döyüşlərində Ermənistan silahlı qüvvələri tərəfindən kəndin mülki sakinləri və onları evləri ağır silahlardan atəşə tutulub. Dövlət başçısının tapşırığı ilə dağıntıya məruz qalmış evlər bərpa və təmir edilərək öz sahiblərinə təhvil verilib. Həmçinin, Qapanlı kəndində yaşayan və 4 ildir ki Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülən Dilqəm Əsgərovun anasının evi ziyarət ediblər.

Daha sonra XİN əməkdaşları ön xəttə gedib, əməliyyat şəraiti ilə tanış olub və xidmət göstərən əsgərlərlə söhbət ediblər.

YENİ MÜSAVAT
N 146 (7035) 9 iyul 2018

# Elmar Vəliyevi vuran Yunis haqda ən son və sensasion məlumatlar

## Gəncə tətikçisinin papağından tutmuş, həyat yoluna qədər, heç yerdə getməyən məlumatlar bu yazıda; "Bu, qisasçılıq zəminində baş vermiş sıradan bir cinayət hadisəsi deyil, siyasi motivli terrordur"; "Bunlar Azərbaycan-Rusiya münasibətlərinə kifayət qədər ciddi zərbə vurulmasına hesablanmış addımlar ola bilər"

**Gəncədə ölkənin ən qüdrətli icra başçısı hesab olunan Elmar Vəliyevə qarşı həyata keçirilən sui-qəsd hələ də ölkə gündəminin əsas mövzusudur. Bu hadisənin seyri elə sürətlə dəyişdi ki, Azərbaycanın yaşadığı enerji böhranı yaddan çıxdı.**




Vəzifəli məmurların və bir çoxlarının sıradan bir kriminal olay, bəzilərinin, qisasçılıq zəminində atılan addım kimi dəyərləndirdiyi hadisə, sən demə, siyasi-ideoloji motivli terror imiş. Sabitlik və təhlükəsiz yaşama komfortuna görə dünyanın ilk 25 dövləti sırasında olan Azərbaycana qarşı sən demə xain bir terror əməli planlaşdırılıb. Əlbəttə, bütün bunları biz istintaq orqanlarının rəsmi bəyanatları əsasında yazırıq.

Belə ki, ötən cümə günü üç mühüm hüquq-mühafizə orqanı - DİN, Baş Prokurorluq və DTX birgə açıqlama yayaraq hadisəni terror aktı elan etdi. Orada mühüm vurğular var idi - Rusiya vətəndaşı olan tətikçi Yunis Səfərovun Qum şəhərində və Suriyada hərbi təlimlərdə olması, bu cinayəti dini motivlərlə törətməsi iddia olundu...

Cəmiyyəti heyrətləndirən bu açıqlamanın ardınca Gəncə tətikçisi Yunis Səfərovun xanımı öncə audio, daha sonra isə video-müraciət yayaraq bəzi iddialara cavab verib. Hazırda ən çox müzakirə olunan məqam Yunis Səfərovun Suriyada hərbi təlimlərdə iştirak etməsidir. Rəsmi açıqlamada bu qeyd var və orada Səfərovun 2016-cı ildə İrana getdiyi və burada 8 ay yaşadığı, bu müddətdə Suriyaya gedərək hərbi təlim aldığı iddia olunur. Hələlik istintaq ortaya bu iddiaları təsdiq edəcək sübutlar qoymayıb. Medianın əlində isə yalnız Yunisin ziyarətgah fotoları və mübhəm papağından başqa heç nə yoxdur.

Bu məqamda qeyd edək ki, bir çoxlarının heç diqqət etmədiyi ''papaq məsələsi''ndəki kodlu mesajı musavat.com saytı aşkara çıxartdı. Məlum oldu ki, Yunis Səfərovun sosial şəbəkələrdə ən çox yayılan saqqallı və yay baş geyimində olan fotosu sıradan bir foto deyil - Yunisin başındakı papaq rəsmi ittihamların istiqamətini təsdiqləyəcək gücdədir. Belə ki, həmin papaq 2008-ci ildə Suriya ərazisində sui-qəsd nəticəsində öldürülmüş, ''Hizbullah'' hörgütünün silahlı qanadının əfsanəvi komandanı İmad Muğniyənin mediaya sızan nadir fotolarından birində başına qoyduğu papaqla eynidir. Bu papaq hizbullahçıların səhra geyimidir və Yunisin bu papaqla fotosu məhz onun bu qrupda olduğunu göstərməyə xidmət edir!

*****

Politoloq Elçin Mirzəbəyli Yunis Səfərovun xarici dövlətin tapşırığı ilə bu qanlı aksiyanı törətdiyini iddia edir. ''Yeni Müsavat'' qəzetinə açıqlamasında o deyib ki, baş vermiş olaya ən müxtəlif spektrdən yanaşmaq olar: Önəcə onu deyim ki, hüquq mühafizə orqanlarının olayla bağlı bir neçə gün gözləyəndən sonra açıqlama verməleri təbii qəbul olunmalıdır. İstintaqın gedişi bunu tələb edir. Digər tərəfdən, ictimaiyyətə dəqiq məlumat verilməsi gərəkdir. Olaydan sonrakı 3 gün ərzində aparılan araşdırmaların nəticəsində bilindi ki, bu terror hadisəsidir. Yunis Səfərovun terror qruplarında fəaliyyət göstərdiyi aşkar olundu. Bilindi ki, o, İranın Qum şəhərində, daha sonra Suriyada təlim keçib. Bundan sonra aksiya məqsədyönlü şəkildə həyata keçirilib".







Politoloq deyir ki, terror ərəfəsində və sonradan enerji sistemində yaranan problemlər, olaydan dərhal sonra sosial şəbəkələrdə təxribatçı qrupların dirçəlməsi və digər məqamları nəzərə alarkən hadisənin məqsədyönlü şəkildə baş verdiyi qənaəti formalaşır: "İstintaq Mingəçevirdə baş verən hadisə ilə Gəncədə baş verən hadisənin arasındakı əlaqənin olub-olmamasına aydınlıq gətirməlidir. Təxribatçı qrupların bu prosesə necə hazırlaşdıqları, konkret olaraq hansı ölkənin kəşfiyyat orqanlarının bu prosesdə əli olması da yəqin ki, aydınlaşdırılacaq. Hansı kənar güclərin Azərbaycanda proseslərə müdaxilə etməklə hansı məqsədlərə çatmaq istədikləri də bilinəcək. Ortalıqda dövlət qulluqçusuna qarşı törədilən terror aksiyası var. Bu aksiya Azərbaycanın 2-ci ən böyük şəhərində baş verib. Olay Azərbaycan Cümhuriyyətinin yarandıqdan sonra yaşaması üçün mühüm qərarların verildiyi, ordunun, polisin yaradıldığı şəhərdə olub və Cümhuriyyətimizin 100 illiyi təntənə ilə qeyd olunduğu dövrə təsadüf edib. Azərbaycan zamanında dünyəvi inkişaf yolunu seçməklə bütünlükdə müsəlman şərqinə bir mesaj verib. Bunun növbəti dəfə qabardılması belə görünür ki, dünyəvi inkişaf modelinə qarşı olan bəzi dairələri narahat edir. Onlar Azərbaycan modelinin timsalında özlərinə təhlükə görürlər. Hadisələrin zəncirvari əlaqəsi proseslərdən belə nəticə çıxarmağa əsas verir. Mənim fikrimcə, bu cür təxribatlar Azərbaycanda keçirilən möhtəşəm hərbi paraddan sonra ölkəmizin təhlükəsizlik sisteminə zərbə vurmaq və xaos yaratmaq məqsədi güdür".

Politoloq ''Yeni Müsavat'' müxbirinə deyib ki, belə hadisələrin baş verməsi hər zaman gözləniləndir. Azərbaycanının təhlükəsizlik orqanları da bu məqamı daim göz önünə alırlar. Bu baxımdan olay baş versə də, göründü ki, bəzilərinin sonradan xaos yaratmaq istəkləri baş tutmadı. Amma sosial şəbəkələri izlədikdə məlum olur ki, bu niyyətdən hələ əl çəkməyiblər. Yenə də Azərbaycana qarşı proses davam edir.

Elçin Mirzəbəyli istintaqın rəsmi versiyası ilə ziddiyyət təşkil edən bir mühüm məqamla bağlı da öz fikirlərini açıqlayıb. Bu məqam Azərbaycanın baş prokurorunun müavini, Elmar Vəlievin qardaşı Xanlar Vəliyevin məlum açıqlaması ilə bağlıdır. Bilindiyi kimi, o, açıqlama verərək, terrorçunun Rusiya kəşfiyyatı ilə əlaqəli olduğunu iddia edib.

Politoloq E. Mirzəbəyli bu məqamı ''Yeni Müsavat''a belə izah edib: ''Düşünürəm ki, daha çox istintaqın verdiyi məlumata istinad olunmalıdır. Xanlar Vəliyevi başa düşmək olar, bu olay onun qardaşına qarşı törədilib. Hadisədən sonra ilkin məlumatlar əsasında yaranan mənzərə belə idi ki, Yunis Səfərov Rusiyada təhsil alıb, oranın vətəndaşıdır. Bu məlumatlar hadisənin məhz Rusiya tərəfindən sifariş verildiyi fikrinin yaranmasına, Azərbaycan-Rusiya münasibətlərinə kifayət qədər ciddi zərbə vurulmasına hesablanmış addımlar ola bilərdi. Xanlar Vəliyevin bu açıqlamasını dövlət rəsmisi kimi deyil, ailə üzvünün fikirləri kimi qəbul etmək lazımdır. Onun qardaşına qarşı terror aktı törədilib və onun emosional fikir bildirməsi də təbiidir''.

Müxbirimizin digər suallarına cavab verən E. Mirzəbəyli deyib ki, Elmar Vəliyevə qarşı terror etmiş Yunis Səfərovun peşəkar olması göz qabağındadır: "Onun atəşi hansı nayihələrə açması, bütövlükdə belə bir cinayəti törətməyə nail olması peşəkarlığından xəbər verir. Yunis Səfərov peşəkar qatildir. Yunis Səfərovun hadisə yerindən qaçmaması isə, fikrimcə, onu yönləndirənlərin məqsədlərindən xəbər verir. Ondan Robin Qud obrazı yaratmaq istəyi, ictimai narazılıq salıb, ondan el qəhrəmanı düzəltmək cəhdləri ortadadır. Xanımının adından yayılan səs yazılarında, videolarda Yunis Səfərovun dini müstəvidə qisas aldığı qabardılır. Məqsəd də bundan ibarətdir ki, bu şəxsin timsalında qəhrəman obrazı formalşdırılsın, guya Azərbaycanda dinə qarşı hansısa addımlar olub və baş verənlər də qarşılığında qisas aksiyasıdır. Yunis Səfərov hadisəni törədəndən sonra onun video-müraciəti yayılmalı və əhalinin dini hisslərindən istifadə edərək onun müdafiəsinə qalxmaları təmin olunmalı idi. Bu qanlı aksiyanın formatı təsadüfi deyil, məqsədyönlü şəkildə seçilib. Əgər Yunis Səfərov hadisə yerindən qaçsaydı, bu halda söhbət konkret olaraq Elmar Vəliyevi cəzalandırmaqdan gedə bilərdi. Yeni sifariş Elmar Vəliyevi vurmaqla məhdudlaşmayıb. Məqsəd bu qanlı aksiyanı icra etmiş Yunis Səfərovun qəhrəman obrazını yaratmaq, ələ keçən qəhrəmanın azad olunması üçün əhalinin dini hisslərindən istifadə edilməklə, onları ayağa qaldırmaq olub. Bu istiqamətdə sosial şəbəkələrdə yayılan materialların motivindən açıq-aydın görünür. Bu qisasçılıq zəminində baş vermiş sıradan bir cinayət hadisəsi deyil, siyasi motivli terrordur''.

Buradaca qeyd edək ki, Yunisi qəhrəman elan edənlərdən biri də Azərbaycana qarşı qəsdlər həyata keçirtmiş, vətən xaini Ələkrəm Hümbətovdur. Ermənistan xüsusi xidmət orqanları ilə yaxından əməkdaşlıq edən və ilin çox hissəsini İrəvanda yaşayan Ələkrəm Hümbətovun bu addımı çox mələlələrdən xəbər verir.

Yada salaq ki, respublikanın hüquq-mühafizə və təhlükəsizlik orqanlarının Gəncədəki hadisə ilə bağlı son rəsmi məlumatında deyilir ki, Elmar Vəliyevə və onun mühafizəçisi, polis serjantı Qasım Aşbazova odlu silahdan atəş açılması planlaşdırılmış terror aktıdır.

Bir məsələyə də diqqət yetirək: şəriətə görə, Y.Səfərovun Vəliyevə qarşı "dini hökm olaraq" sui-qəsd etməsi üçün hansısa dini fətva olmalıdır. Yəni məsələn, hansısa dini mərkəz və ya din xadimi bununla bağlı fətva verməli, dindarlara çağırış etməlidir. ''Yeni Müsavat'' müxbirinin araşdırmasına görə, ortada hər hansı belə bir dini çağırış, fətva yoxdur. Digər tərəfdən, Elmar Vəliyev dinə, dindarlara qarşı onların qəzəblənidərəcək addımlar atsa da, bunlar sistematik, yalnız bir şəhərə məxsus ardıcıl hücumlar olmayıb ki, ona qarşı dindar qəzəbi hər zaman davam etsin. Xanımının iddia etdiyi "Şərab festivalı" 5 il əvvəl olub, Aşura qadağası ötən il baş verib və sonda yerli əhalinin təzyiqi ilə hökumət geri çəkilməli olub. Ancaq Vəliyevin "din düşməni", qətlə yetirilməli adam olması ilə bağlı hər hansı bir şəriət hökmü olmayıb. Bu mənada hadisəni İslam adına edilmiş hərəkət adlandırmaq çətindir.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**''Yeni Müsavat''**



# II Qareginin Naxçıvanla sərhəddəki duası

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Ermənistanda kim çətinə düşürsə, təzyiqlərlə üzləşirsə, özünü ya Qarabağ tərəflərə verir, ya da üz tutur Naxçıvanla sərhəddə. Ötən şənbə erməni katolikosu II Qaregin eyni təcrübədən istifadə edib, Azərbaycan ordusunun uğurlu hərbi əməliyyatı nəticəsində azad edilmiş Naxçıvan cəbhəsi tərəfdə xidmət keçən erməni hərbçilərlə görüşüb, onlar üçün dua edib.**

Bax, bu, hələ ermənilərin din xadimidir, guya ki, sülh tərəfdarıdır, qan tökülməsini istəməyən birisidir. II Qaregin indiyədək dəfələrlə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə ilə görüşüb, konfliktin dinc yolla nizamlanmasına səy göstərəcəyini vəd edib. Elə sonuncu dəfə 2016-cı ilin payızında, aprel döyüşlərindən sonra səngiməyən gərgin şəraitlə bağlı Rusiya patriarxı Kirillin təşəbbüsü ilə bir araya gəlmişdilər. Ondan əvvəlsə danışıqları dövlət sərhədində davam etdirmək təşəbbüsü dəstəklənmişdi. Amma yox, nə Qareginə, nə də erməniləri qara günə qoyan xəstə təfəkkürlü erməni ideoloqlarına barışıq, ədalətli həll, işğaldakı torpaqların geri qaytarılması sərf etmir, ona görə də ara-sıra görüntü naminə görüşdən o yana keçmirlər.

Erməni katalikosunun Naxçıvan tərəflərdə peyda olması da onun gerçək mahiyyətini ortaya çıxarır. Necə ki, Ermənistanın müdafiə naziri David Tonoyan və xarici işlər naziri Zöhrab Mnatsakanyan may ayında yeni hökumətdə yer alan kimi, Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan istiqamətinə gəldilər, aranı qızışdırmaq üçün əllərindən gələni etdilər. Şükürlər olsun ki, qəhrəman ordumuz düşmənin həmin istiqamətindəki təxribatlarına layiqli cavab verib, böyük bir ərazini azad etdi. İndi Qaregin həmin istiqamətə gəlib...

Əslində bu səfərlə Qaregin özünü xilas etmək istəyir. Reallıq budur ki, erməni katolikosunun özünün də durumu yaxşı deyil. Serj Sərkisyanın dayaqlarının sökülməsi, hətta onun ailə üzvlərinə qarşı cinayət işinin qaldırılması, araşdırmaların aparılması şəraitində Qaregin də "qara gününü qablaşdırıb", nicat yolu arayır. Artıq neçə müddətdir ki, Ermənistan paytaxtında, Eçmiədzində Qareginin istefası tələb olunur. Heç şübhəsiz ki, Nikol Paşinyan dini cameənin başına da öz adamını gətirmək istəyir, Qaregin də "yol üstə"dir.

Erməni din xadiminin Sərkisyan-Köçəryan cinayətlərinə ortaq olmadığını kimsə deyə bilməz. Robert Köçəryan Avropaya qaçıb, Sərkisyan müdafiəyə çəkilib, erməni katalikosu da özünü hərbçilərin içərisinə soxmaqla xilas olmaq istəyir. Bununla o, həm də erməni diasporuna mesaj vermək istəyir ki, "mən nəinki Qarabağ, həm də Naxçıvan uğrunda mübarizədə sizinlə bir yerdəyəm". Yoxsa onun Naxçıvan tərəflərdə nə ölümü var idi?

Bir az əvvəl Ermənistandakı ekspertlər "Naxçıvanın geri qaytarılması uğrunda" mübarizəyə başlamağı təklif etmişdilər. Erməni nazirlərdən sonra Qareginin bu gəlişi həm də o niyyətdən xəbər verir.

Təbii ki, bu, düşmənin arzusudur. İnşallah ordumuz düşmənə layiqli cavab verəcək, Günnütdə olduğu kimi. Amma istənilən halda ayıq olmalıyıq. Ermənistan Naxçıvan cəbhəsində diqqət çəkməklə diqqəti Qarabağdan yayındırmaq istəyir. Necə ki, Rusiya Ukraynanı Donbasda döyüşməyə vadar etməklə Krımın işğalını arxa plana atmağı bacardı.

Ermənistan həm də Azərbaycanı Naxçıvan istiqamətindən böyük savaşa çəkmək istəyir. Elə bir mövqedən ki, orada Rusiyanın, "Rus NATO"-su deyilən KTMT-nin də müdaxilə imkanı yaransın. Fakt budur ki, Rusiyanın Ermənistanda hərbi bazası var və Naxçıvan istiqamətindən işğalçıya zərbə endirilsə, Gümrüdəki baza sakit oturmayacaq. Üstəlik, Naxçıvan bölgəsində yaxın ərazilərdə rus-erməni hərbi birləşməsi mövcuddur. Qarabağda baş verənlərə Rusiyanın müdaxilə imkanı yoxdur, bunu nə iləsə əsaslandırmaq mümkün də deyil. Necə ki, aprel döyüşlərini Rusiya sadəcə müşahidə etdi, KTMT ölkələri də "Azərbaycanın daxili işidir" deyib kənarda dayandı. Amma Naxçıvan istiqamətindən Ermənistanın təxribatlara əl atması o deməkdir ki, rəsmi İrəvan ağasına arxalanır.

Dini liderlərin ötən görüşlərindən birində sənəd də imzalanmışdı.... Şuşa həbsxanasında 4 ildir (!) iki girovumuz saxlanılır. Qaregin bu illər ərzində bir dəfə onların azadlığı üçün hakimiyyətə müraciət etməyib. Bu fakt onun "sülhpərvərliyini" göstərir. Qaregin sülh üçün yox, Azərbaycan ərazilərinin qəsb olunması üçün dua edir. Bu, hələ erməninin din xadimidir. Elə isə erməni siyasətçisi, diplomatı, hərbçisi ilə danışığa vaxt sərf etməyin heç bir mənası qalmır...

# Gəncədəki qanlı olayda xarici qüvvə iddiası - kimə lazım idi...

## "Azərbaycanı qarışdırmaq Rusiya və ya İranın nəyinə lazımdır sualı gündəmdə ağırlığını qoruyur"

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı silahlı hücumun səbəbləri barədə cəmiyyətdə ən müxtəlif ehtimal irəli sürülür. Daxili İşlər Nazirliyi, Respublika Baş Prokurorluğu və Dövlət Təhlükəsizlik Xidmətinin yaydığı birgə açıqlamada isə Elmar Vəliyevə və onun mühafizəsini təşkil edən polis əməkdaşına qarşı tapançadan atəş açıb onları yaralayan Rusiya vətəndaşı Yunis Səfərovun 8 ay İranın Qum şəhərində yaşadığı, daha sonra Suriya Ərəb Respublikasının ərazisində olan silahlı birləşmələrin tərkibində döyüş təlimi keçdiyi bildirilir. Qeyd olunur ki, o, Azərbaycanda dövlət çevrilişi etmək və şəriət dövləti qurmaq istəyib. Adıçəkilən rəsmi qurumlar hadisəni terror aktı kimi qiymətləndiriblər.**

Elmar Vəliyevin qardaşı, Azərbaycan Respublikasının hərbi prokuroru Xanlar Vəliyev isə mediaya açıqlamasında hadisədə erməni və Rusiya izi olduğuna dolayısı ilə işarə etdi. Xanlar Vəliyev bildirib ki, Yunis Səfərov və anası ermənidir və Rusiyanın xüsusi xidmət orqanlarında çalışır. Siyasi və təhlükəsizlik ekspertləri isə hesab edir ki, hadisənin arxasında nələrin və ya hansısa dövlətin, yaxud dairələrin dayanıb-dayanmadığını istintaq dəqiqləşdirməlidir.

"Atlas" Araşadırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a şərhində bildirdi ki, Gəncədə məlum kriminal olayının arxasında kimlərin dayandığını və ya dayanmadığını istintaq göstərəcək: "Ancaq artıq rəsmilərimiz iki dövlətə dolayısı ilə də olsa işarə ediblər. Biri Rusiya, digəri İrandır. Halbuki, rəsmilərimiz açıqlamalarında hər iki dövləti Azərbaycanın strateji tərəfdaşı adlandırırlar. Rusiyadan başlayaq. Azərbaycanın hərbi prokuroru qardaşını yaralayan şəxs haqqında "o adamın özü və anası ermənidir və Rusiyanın xüsusi xidmət orqanlarında çalışır. İndi bundan nəticə çıxarın" açıqlamasını səsləndirdi. Bundan iki nəticə çıxır. Birincisi, Rusiya xüsusi xidmət orqanlarında xeyli erməni əsilli Rusiya vətəndaşı çalışır. İkincisi, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı hazırlanan sui-qəsd planında Rusiyanın xüsusi xidmət orqanlarındakı dairələrdən şübhələnməliyik. Elə 1990-cı illərdə də Surət Hüseynovu Gəncədə qızışdıran bəlli mərkəz idi. Hərbi prokurordan fərqli olaraq hakimiyyət içərisində Rusiyanı müttəfiq adlandıranlar çoxdur.



Belə çıxır ki, iki fərqli Rusiya var? Biri Azərbaycanın əleyhinə işləyir və xaos yaratmaq istəyir, o biri Azərbaycanla dostluq etmək istəyir. Gəncəni və Azərbaycanı qarışdırmaq Rusiyanın nəyinə lazımdır sualı gündəmdə ağırlığını qoruyur.

Eyni sualı İrana da şamil etmək olar. Doğrudur, cinayəti törədənin İranın Qum şəhərində bir neçə ay yaşaması, o cümlədən Gəncənin icra hakiminin dindarlarla münasibətlərinin soyuq olması İran versiyasının ciddiliyini artırır. Hətta Gəncədə baş verən hadisə ilə eyni günlərdə Avropa ölkələrində bir neçə iranlı diplomat həbs edildi. Həmin diplomatlar Avropa ölkələrində terror olaylarını hazırlayanlara təlimat verməkdə ittiham edilirlər. İran prezidenti Həsən Ruhani Avropa və qonşusu Azərbaycanla münasibətləri korlamaq istəməz. Bu, onun maraqlarına uyğun deyil. Ancaq İranda hakimiyyət bir qüvvədən ibarət deyil. Mən istisna etmirəm ki, İranın mühafizəkar dairələrində Qərb ölkələrində və Amerikanın bölgədəki tərəfdaşlarında problem yaratmaq istəyən qruplar var. Məhz həmin qruplar tətiyi çəkə bilərlər".

Ekspert qeyd etdi ki, bütün hallarda sözügedən cinayət hadisəsi ciddi tədqiq edilməlidir, bəlkə də cinayət şəxsi intiqam zəminində həyata keçirilib: "Ancaq o da faktdır ki, ətrafımızda Azərbaycana problem yaratmaq istəyən mərkəzlər var. Azərbaycanı bir neçə saatlığa işıqsız qoyan Mingəçevirdə baş verən son hadisə də həmin mərkəzlərin maraqlarına cavab verir. Ona görə də çox ciddi araşdırmalara olmalıdır".

❑ **Etìbar SEYİDAĞA, "Yenì Müsavat"**

# Əkrəm Həsənov: "Azərbaycanda ölüm cəzası bərpa edilməlidir"

**"Türkiyədə ölüm hökmünün tətbiqi elə də sadə məsələ deyil". "Yeni Müsavat"ın məlumatına görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən səslənən pedofillərə qarşı ölüm hökmünün bərpa oluna biləcəyi məsələsini "Sputnik Azərbaycan"a şərh edən hüquqşünas Əkrəm Həsənov deyib.**

O deyib ki, Azərbaycanda da müəyyən cinayətlər üçün ölüm cəzasının bərpa olunmasının tərəfdarıdır: "Elə cinayətlər var ki, məhz ölümlə cəzalandırılmalıdır. Ölüm cəzası bütün cinayətlərin qarşısını almasa da, müəyyən qisim insanlar bu cəzadan qorxduğu üçün cinayət törətmirlər. Mən də xüsusi hallarda bu cəzanın tətbiqinin tərəfdarıyam. Xüsusən də uşaqlara və qadınlara qarşı törədilmiş zorakılıq halları və xüsusi qəddarlıqla törədilmiş cinayətlərin cəzası bu olmalıdır".

Qeyd edək ki, bir müddət əvvəl Türkiyədə pedofillərə qarşı ölüm hökmünün bərpa olunması məsələsinin müzakirə olunduğu bildirilmişdi.



YENİ MÜSAVAT
N 146 (7035) 9 iyul 2018

# "Azərbaycan ətrafında çox ciddi siyasi proseslər gedir"

## Eldar Namazov: "Mən hesab edirəm ki, hələ bütün informasiyalar tam açılmayıb"

**"Baxış bucağı"**

**Beynəlxalq Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Eldar Namazov bir ay əvvəl "Yeni Müsavat"a geniş müsahibəsində ciddi bir xəbərdarlıqla çıxış etmişdi. Təcrübəli siyasi ekspert dünyadakı və regiondakı prosesləri geniş təhlil edərkən bildirmişdi ki, vəziyyət çox mürəkkəb olduğundan Azərbaycan ehtiyatlı mövqe tutmalıdır. Ölkəmizdə son günlər yaşanan elektrik enerjisi böhranı, həmçinin Gəncə şəhərindəki sui-qəsd hadisəsi, rəsmi qurumların baş verənlərlə bağlı sensasion açıqlamaları ilə əlaqədar E.Namazova müraciət etdik.**

***- Eldar bəy, ötən ayın əvvəllərində qəzetimizə müsahibənizdə təhlükələrin anonsunu vermişdiniz. Bu gün ölkəmizdə baş verən son hadisələr haqqında nə deyə bilərsiniz? Hansısa təhlükəli ssenariyə start verilib, yoxsa bunlar sadəcə təsadüfdür?***

- Bilirsiniz, böyük, ciddi siyasi proseslərdə heç nə təsadüfi olmur. Təsadüfi bunun detalları ola bilər. Ancaq mahiyyətcə təsadüfi hallar olmur. O müsahibədən sonra baş verən hadisələrin, demək olar, hamısı bir daha onu sübut edir ki, Azərbaycan ətrafında çox ciddi siyasi proseslər gedir. Bizim regionda baş verənlərin Azərbaycanın daxilində də təsiri çox ciddidir. Bir tərəfdən Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək imkanı indi xeyli artıb. Artıq 90-cı illərin ortalarından başlamış bu günə qədər Azərbaycanın öz ərazilərini işğaldan azad etmək üçün belə münbit şərait olmamışdı. Eyni zamanda, Azərbaycanın həm ətrafında, həm də ölkəmizin daxilində gedən bəzi proseslər bizimçün də çox böyük təhlükələr yaradır. Biz onları da mütləq nəzərə almalıyıq ki, bir tərəfdən dövlətçiliyimizi qoruyaq, eyni zamanda da ərazi bütövlüyümüzü bərpa edək.

***- Konkretləşdirsək, "Azərenerji"də baş verənlər yalnız məsuliyyətsizliyin məntiqi nəticəsidir, yoxsa orda hansısa təxribat elementləri var?***

- Hələ təqribən iki il yarım bundan əvvəl ermənilərin bəzi hakimiyyətə yaxın ekspertləri həm Qarabağla bağlı beynəlxalq təşkilatların təşkil etdiyi görüşlərdə, həm də Ermənistan mediasında hədə-qorxu ilə çıxış etməyə başladılar. Xəbərdarlıq etməyə başladılar ki, Ermənistan preventiv olaraq Mingəçevir Su Elektrik Stansiyasına zərbə endirə bilər, bu da Azərbaycanı iflic vəziyyətinə sala bilər. İddia etdilər ki, əgər bu addım atılsa, Azərbaycan heç bir hərbi əməliyyat keçirmək iqtidarında olmayacaq. Mingəçevirdə məlum hadisələr baş verəndən sonrakı gün erməni mətbuatında bu haqda məlumatlar çap olunurdu və Ermənistanın ruslardan aldığı raket sistemlərinin şəkillərini də həmin xəbərlərə əlavə edirdilər ki, "bu, Azərbaycanın zəif yeridir, həmişə istifadə edə bilərik". Son günlərdə isə Ukrayna mətbuatında ölkənin təhlükəsizlik xidmətlərinin çox ciddi informasiyası dərc olunub ki, onlar uzun illərdir hazırlanan bir təxribatın qarşısını alıblar. Bu da ondan ibarətdir ki, Cənubi Atom Elektron Stansiya üçün son illərdə bilərəkdən köhnəlmiş avadanlıqlar alınıb, təmir işləri vaxtında həyata keçirilməyib. Həmçinin təmir üçün alınan avadanlıqlar yararsız, saxta olub. Bununla da çox böyük bir fəlakət, təxribat hazırlanırmış, həmin Atom Stansiyasında qəza baş verməliymiş. Yəni biz bütün bunları, həm Ermənistan mətbuatının hələ 2 il yarım bundan əvvəlki materiallarını, həm də Ukrayna təhlükəsizlik qüvvələrinin apardığı əməliyyat nəticəsində təxribatçı qrupun həbs olunmasını diqqətə almalıyıq. İndi təsəvvür edin, Mingəçevir İstilik Elektrik Stansiyasında bir yanğın baş verdi, bütün ölkə iflic vəziyyətinə düşdü. Prezidentin yanında keçirilən müşavirədə də məlum oldu ki, aylarla, illərlə FHN-in komissiyaları, başqa qurumlar orda vəziyyətin çox təhlükəli olması barədə xəbərdarlıq ediblər. Həmçinin nöqsanlar, zəif yerlər də göstərilib ki, hara təmir olunmalıdır. Ancaq indi bəlli olur ki, həmin xəbərdarlıqlardan da nəticə çıxarılmayıb və vaxtında avadanlıqlar dəyişdirilməyib, təmir işləri isə yarımçılıq aparılıb.



***- Necə bilirsiniz, bu, sadəcə, səhlənkarlıqdır, ya məqsədli şəkildə olub?***

- Bir daha deyirəm, 2 il bundan qabaq erməni mətbuatı açıq şəkildə yazırdı ki, Azərbaycanın ən zəif yeri Mingəçevir SES-dir, biz oranı vursaq, Azərbaycan iflic vəziyyətində olacaq. Həmçinin Ukrayna xüsusi xidmət orqanlarının Atom Stansiyası barədə yazdığı materiallarda qeyd olunur ki, bəzi məmurlar bilərəkdən illərlə orda təmir işlərini düzgün aparmırdılar, aldıqları avadanlıqlar da yararsız idi. Bunun da məqsədi o idi ki, gec-tez böyük bir qəza baş versin və bütün Ukraynanı iflic vəziyyətinə salsın.

***- Dediklərinizdən belə çıxır ki, bizdə də eyni mövqedə olan şəxslər olub?***

- Bu hadisə baş verəndə mənim ilk reaksiyam da ondan ibarət oldu ki, bu, enerji məsələsi deyil, Azərbaycanın milli təhlükəsizliyinə olan birbaşa qəsddir və bununla bağlı cinayət işi qaldırılmalı və çox ciddi araşdırmalar aparılmalıdır. Ukraynadakı hadisəni misal gətirdim. İndi Mingəçevirdəki qəzadan iki gün sonra yenə də bir yanğın baş verdi. Ondan sonra axşamüstü növbəti bir yanğın oldu. Yəni illərlə həmin stansiyada modernləşdirmə, təmir işləri elə aparılırdı ki, həmin elektrik stansiyasında bir yox, iki yox, bir çox yerlərdə qəza vəziyyəti yaratmışdılar. Bunu təsadüfi saymaq olarmı?

***- Prezidentin reaksiyası çox sərt oldu. Bundan sonra nə gözləyirisiniz?***

- Bu məsələlərdə mən proqnoz verməyi sevmirəm. Yəni hakimiyyətin hansı addım atacağı haqda indidən bir söz deyə bilmərəm. Şəxsən mənim yanaşmam odur ki, bu sahəyə rəhbərlik edən adamlar illərlə orda işlərini düzgün qurmayıblarsa, aldıqları avadanlıqlar yararsız olubsa, təmir işləri yarımçıq həyata keçirilibsə, bu, dövlətə xəyanətdən başqa bir şey deyil.

***- Gəncənin icra başçısı Elmar Vəliyevə qarşı sui-qəsdi necə qiymətləndirmək olar? Rəsmi qurumlar artıq xeyli sensasion məlumatlar açıqlayıb. Bu iki hadisə təsadüfən üst-üstə düşüb, yoxsa eyni mərkəzdən idarə olunur?***

- Mən ilk növbədə onu qeyd etmək istəyirəm ki, həmin günlərdə Azərbaycan hakim dairələrindən bir-birini təkzib edən 3-4 versiya ortalığa atılmışdı. Hamı buna diqqət yetirdi ki, hakimiyyət tərəfindən verilən reaksiyalarla - bəzi yüksək çinli məmurların da şərhləri bura daxildir, eyni zamanda dövlət orqanlarının rəsmi məlumatları da - tanış olanda görürsən ki, bir-birinə zidd, bir-birini təkzib edən 3-4 versiya irəli sürülür. Gün-gündən də bu proseslər davam edir. Hiss olunur ki, bu prosesi müxtəlif istiqamətlərə yönəltmək üçün ölkənin xaricində də çox ciddi işlər görülür. İctimai rəyə təsir etmək baxımından da, prosesləri müəyyən istiqamətə yönəltməklə bağlı da. Hətta ermənilərin pulu ilə maliyyələşən, Azərbaycanda separatçılığı yayan təxribatçı mərkəzlər də indi bu hadisədən yapışıb öz təbliğatını qururlar və bu proseslərə müdaxilə etmək istəyirlər. Son günlərdə artıq Azərbaycanın xaricində yerləşən və ermənilər tərəfdən maliyyələşən separatçı mərkəzlərin də Gəncə olayı ilə bağlı videomateriallarını görürük. Ona görə də hətta bu hadisə təsadüfi olsa belə, ondan müxtəlif qüvvələr tərəfindən istifadə olunması artıq təsadüfi deyil.

***- Baş verənlərin arxasında dayanan qüvvələr hardadır, Rusiyada, İranda, yoxsa başqa bir ölkədə? Bu barədə qənaətiniz necədir?***

- Hər halda bir-birini təkzib edən informasiyalar içərisində həm İran, həm də Rusiya amili haqqında çox deyilir. Amma mən hesab edirəm ki, hələ bütün informasiyalar tam açılmayıb. Hələ müəyyən bir təxribatçı addımları da gözləmək olar. Ona görə ki, xaricdə yerləşən mərkəzlər öz təxribatçı əməllərini illərdir davam edirlər və onlar bu işlərini dayandırmayacaqlar. Ancaq mən burada vacib bir məqama da toxunmaq istəyirəm. Biz indi çox ciddi geosiyasi amillərdən və proseslərdən danışırıq. Ancaq bu proseslərin içərisində çox mühüm rol oynayan xalqın, millətin iradəsi, onun dünyagörüşüdür. Son günlər xaricdə yerləşən, Azərbaycanı parçalamağa çalışan mərkəzlərin şüarları, təbliğatı ilə tanış olarkən mən onların hamısına bir həqiqəti çatdırmaq istəyirəm. Bizim mənfur qonşularımız ermənilər bütün tarixi abidələri, tarixi mənbələri saxtalaşdırırlar və yüz illərdir bu işlə məşğuldurlar. Ancaq Gürcüstanda, bizim başqa bir qonşumuzda tarixi abidələrə yanaşma çox fərqli olub. Bizim Gürcüstan alimlərimizlə də müxtəlif məsələlərdə toqquşmalarımız, hansısa tarixi proseslərlə bağlı fikirayrılıqlarımız olub. Lakin onlar ermənilər qədər tarixi abidələri saxtalaşdırmaqla heç vaxt məşğul olmayıblar. Gürcüstanın ən qədim yazılı mənbələrində, Makedoniyalı İsgəndər dövrü haqqında olan yazılarda qeyd olunur ki, Kür çayının axarı ilə, Gürcüstandan şərqdə buntürklər yaşadığı dörd böyük şəhər və onların əhatəsi var. Buntürklər, yəni qədim, oturuşmuş, aborigen deməkdir. Hətta sovet dövründə də gürcü alimləri bu mənbələri misal gətirirdilər. Halbuki sovet tarixi elmi, Kommunist Partiyasının tam ideoloji nəzarətində olan elm iddia edirdi ki, türklər buraya 12-ci əsrdə gəliblər və burada yaşayan türkdilli xalqlar əslində qalsa türk deyillər, onlar irandilli olublar. Gürcü mənbələri isə göstərir ki, eramızdan əvvəlki dövrdən burda, Kür çayının axarı ilə 4 böyük şəhərdə aborigen türklər yaşadırdı. Burada Gəncəbasardan söhbət gedir. Gəncəbasar qədim türk torpağıdır və öz dövlətçiliyini müdafiə edən, Azərbaycanın müstəqilliyi tarixində böyük və şərəfli səhifələrini yazan bir türk diyarıdır. Kimlərsə burada ölkəni parçalamaq istəyən, müxtəlif bölgələri üz-üzə qoymağa çalışan, Moskvadamı, İrəvandamı radiolar açıb bu təbliğatı aparan adamlar bilməlidirlər ki, bunlar hamısı əbəsdir. Bu qədim türk diyarı həm harınlamış məmurun da, eyni zamanda Azərbaycanı parçalamaq istəyən, dövlətimizi içəridən dağıtmağa çalışan qüvvələrin də cavabını verməyə qadirdir.

**"Əgər biz torpaqlarımızın azad olunmasını, daxildə sabitliyin, əmin-amanlığın qorunmasını istəyiriksə, dövlət idarəetmə sistemi saat kimi işləməlidir, dəqiq, operativ və obyektiv olmalıdır"**

***- Məmurun güllələnməsi bir presedentə çevrilə, təhlükəli hal ala bilərmi? Vətəndaşa qarşı haqsızlığa yol verən məmura qarşı bu yolla "danışmaq" ənənəsi təhlükəli perspektivlərdən xəbər vermirmi?***

- Təbii ki, biz həmişə belə üsulların, cinayətlərin əleyhinə olmuşuq və birmənalı olaraq belə hadisələr pislənməlidir. Sadəcə olaraq, hər bir hadisədə medalın iki üzü olur. Biz odlu silahdan istifadə edib hansısa məmurlardan qisas alınmasını pisləməklə yanaşı, hakimiyyətdən belə məmurlarla bağlı vaxtında ölçü götürülməsini də istəməliyik. Ümumiyyətlə, son illərdə Azərbaycanda bir neçə ciddi hadisələr baş verdi, başqa-başqa sahələrdə baş verməsinə baxmayaraq, onları birləşdirən bir amil var. Məsələn, Azərbaycanın Beynəlxalq Bankında az qala dövlət büdcəsinə bərabər olan vəsait talan edildi, sonra üstü də açıldı. MTN-də mütəşəkkil cinayət qrupu formalaşdı və illərlə iş adamlarına divan tuturdu, sonra onların üstü açıldı. Ondan sonra Mingəçevirdə qəza və Gəncədəki hadisə baş verdi. Bilirsinizmi bunların hamısını birləşdirən hansı amildir? Bu hadisələrin biri bank, digəri milli təhlükəsizlik, digəri enerji sektorunda, başqası icra və yerli camaat arasındakı narazılıq zəminində oldu. Ancaq bunları birləşdirən bir amil var. O hadisəyə gətirib çıxaran proseslər illərlə davam edirdi. MTN-də baş verənlər, Beynəlxalq Bankdakı talançılıq bir gündə baş vermədi, bu, illərlə davam edirdi. Prezidentin yanındakı müşavirədə məlum oldu ki, Mingəçevir Elektrik Stansiyası ilə bağlı illərlə arayışlar verilib ki, orda nöqsanlar, təhlükəli qəzaya səbəb ola biləcək amillər var. Gəncədə icra başçısı ilə bağlı illərlə mətbuatda materiallar gedirdi ki, insanlarla davranışı çox kobuddur, çox qəddardır, orda narazılıq var və nə isə baş verə bilər. Bunları birləşdirən amil odur ki, dövlət idarəetmə sistemində nəzarət funksiyası artıq yoxdur, hiss olunmur. Nəzarət funksiyası olsaydı, vaxtında tədbir görülərdi. Həm MTN, həm Beynəlxalq Bank, həm Mingəçevirdə baş verən hadisə, həm Gəncədə yaranmış ab-hava ilə bağlı hadisə baş verməzdi. Nəzarət funksiyasını itirəndə məmur özbaşınalığı illərlə müxtəlif sahələrdə davam edir və hardasa partlayışlar baş verir. Bunlar hamısı Azərbaycan üçün çox böyük təhlükə yaradan amillərdir. Ona görə də mən söhbətimizin əvvəlinə qayıdıram ki, burada dövlətimizin tədbirlər görməsi çox vacibdir. Belə bir geopolitik durumda, hətta Azərbaycanın ətrafında da təhlükəli proseslər gedir, regional müharibələrə bizim sərhədlərimizə yaxınlaşır. Bizim ordumuzun qarşısında duran vəzifələr var. Ordumuz buna hazırdır, mən buna tam əminəm. Ancaq gərək arxa cəbhədə tam əmin-amanlıq olsun. Bütün bu məsələlər bizim idarəetmə sistemindəki nöqsanlarla uzlaşmır. Bu məsələdə ciddi, sistemli tədbirlər görülməlidir. Əgər biz torpaqlarımızın azad olunmasını, daxildə sabitliyin, əmin-amanlığın qorunmasını istəyiriksə, dövlət idarəetmə sistemi saat kimi işləməlidir, dəqiq, operativ və obyektiv olmalıdır. Buna nail ola bilməsək, qarşımızda duran böyük və çox mürəkkəb vəzifələri həyata keçirməkdə ya böyük çətinlik çəkəcəyik, ya da bu, mümkün olmayacaq.

❑ Elşad PAŞASOY,
"Yeni Müsavat"



# Heyvan kəsimi üçün yerlər

Zamin HACI
zaminhaci@gmail.com

**"Ət qonaqdır, sümük möhkəm olsun"**
*(Azərbaycan ata sözü)*

**İŞİD terrorçularından birtəhər canımız qurtarmışdı, İŞIQ terrorçuları ilə üzləşdik. Hərçənd, heç dəqiq məlum deyildir bu işlərdə terror vardırmı. Çünki hər ağızdan bir avaz gəlir, zəhmətkeşlərimiz bilmir kimə inansın. Biri deyir icra başçısını vuran xaricdə təlim görmüş dini fanatik terrorçudur, o biri deyir bunun dindən xəbəri yoxdur, olsa da ermənidir, xristiandır, rusun agentidir, farsın agentidir, nə bilim, marsiançikdir...**

Ancaq zəhmətkeşlərimiz üçün həqiqət, prinsipcə, o qədər də önəm daşımır. (Həqiqət kartof deyil qızardıb uşağa verəsən, kimə lazımdır?) Terror qorxutmaq mənasını verən sözdür, biz isə heç qorxmadıq. Əksinə, qaranlığa və terrora qarşı birlik nümayiş etdirdik, bunu dövlət rəhbərliyi də açıqladı, yüksək qiymətləndirdi. Ümid edirik bu qiymətləndirmə söz olaraq qalmaz, hansısa maddi məna da daşıyar. Misal üçün, qaranlıqda özünü yaxşı apardığı, dövlətçiliyə sədaqət nümayiş etdirdiyi üçün millətin işıq pulunu 1-2 qəpik aşağı salmaq olarmı? Bu bizə gələcək qələbələr üçün ruh verər, dövlətçilik ətrafında daha sıx birləşərik. Tələb deyil, sadəcə bir təklifdir, görün neyləyirsiniz. Mükafat olanda oynamaq həvəsi də artır.

Doğrudan da, uca millətimiz adətən kəmfürsət olmur, kiminsə pis günündən istifadə eləməyə çalışmır. Bunu bir qırağa yazaq, daha da artıraq. Misal üçün, qaranlıq saatlarında ölkədə oğurluq hadisələrinin artması deyə bir şey oldumu? Əlimizdə yetərli statistika yoxdur, ancaq xəbər-ətər olsa eşidərdik. Hətta iddia edirəm ki, qaranlıq günlərdə oğurluq, başqa cinayət halları adi günlərdəkindən az olmuşdur. Deməli millətin hətta oğruları da göydəndüşmə fürsətdən yararlanmaq istəməyibdir. (Əslində bizim cinayətkar aləm tarixən xalqın yanında olubdur, hörmətini saxlamağa çalışıbdır, ictimai nüfuz, imic bizim gerçək quldurlar üçün önəm daşıyıbdır. El qaçağı, qaçaq eli saxlayıbdır. Ancaq bu, ayrı təmadır).

Bütün bunların fonunda Qida Təhlükəsizliyi Dövlət Agentliyinin (QTDA) üzləşdiyi problem maraqlıdır. Bir qədər öncə Bakı şəhərində harda gəldi mal-heyvan kəsilməsini qadağan edən fərman verilmişdi, tapşırılmışdı müəyyən yerlər ayrılsın, heyvanların qanı ancaq həmin obyektlərdə axıdılsın.

Azərbaycan üçün aktual məsələdir, mən özüm dəfələrlə buna toxunmuşam. Qəssablar, ət satışıyla məşğul olan yoldaşlar ağını (bəlkə də "qırmızısını" yazmaq düz olardı - qana görə) çıxardıblar. Məktəb yolunun üstündə bir də görürsən dananı yıxıb birinci siniflərin gözü qabağında kəsdilər, qan fışqırdı riyaziyyat müəlliminin əlindəki transportirin üstünə... Yaxud, gedirsən hansısa teatrda təzəcə xalq artisti, prezident təqaüdü almış sənətkarımızın yüksək performansını izləməyə, bu zaman qəssab qoyunları şaqqalayıb teatrın qarderobunda qarmaqdan asır, elə ordaca dərisini soyur. Hələ bunlar harasıdır, mən bir dəfə televizorda Milli Məclisin iclasına baxırdım, kimsə tribunanın düz ətəyində hinduşka kəsirdi. Belə olmaz. Belə yaramaz, yoldaşlar. Xüsusən bəzi dini bayramlarda şəhərdə qan su yerinə axırdı.

Bu baxımdan heyvan kəsiminin yalnız xüsusi yerlərdə aparılması olduqca vaxtında verilmiş müdrik, uzaqgörən, əhəmiyyətli qərardır. Lakin QDTA əcaib problemlə üzləşdiyini bildirir: deyirlər Bakıda, özəlliklə mərkəzi hissələrdə heyvan kəsmək üçün yer tapılmır. Daha doğrusu, dövlətə məxsus, ictimai binalarda elə geniş kvadraturalı ərazilər yoxdur.

İstəsələr taparlar, istəmirlər. Bu cür dövlət əhəmiyyətli proqramı pozmaq istəyirlər. Ki, sonra bəhanə eləsinlər, desinlər neyləyək, yer olmadı, dananı yenə prospektin ortasında boğazladıq. Hər rayonda neçə dənə məktəb binası var. Bunları başqa dövləti işlərdə vaxtaşırı istifadə edirik. (Seçkilər-meçkilər, dərs-mərs və sairə). İndi dərsdən kənar saatlarda, şənbə-bazar günlərində heyvan kəsimi üçün yararlanmaq olmazmı? Nə fərqi: obyekt səsin kəsimi üçün olsun, ya qoyun kəsimi üçün? Yayda 3 ay ümumiyyətlə boş olur. Yaxud, elə bayaq adını çəkdiyim teatrlar, mədəniyyət obyektləri, səhiyyə ocaqları, qəzet redaksiyaları... Onsuz bəzi teatr rejissorlarımız, jurnalist və aktyorlarımız, baş həkim və məktəb direktorlarımız, köşə yazarı və dirijorlarımız mahiyyət etibariylə qəssabdan fərqlənmirlər. Balta ver, ət doğrasınlar, bağırsaq təmizləsinlər, dəri soysunlar.

Yer tapılmırmış... Yerə nə gəlib? Siz düzgün axtarmırsınız.



# Ərdoğan sabah gəlir - "Türk saatı" Bakıdan başlayır

Türkiyə prezidenti seçkilərdən sonra ilk səfərini yenə Azərbaycana edir; buradan NATO sammitinə yollanacaq
Ərdoğanın Bakıdan Brüsselə aparacağı mühüm mesaj;
Paşinyanla təmas da istisna deyil; **politoloq:** "Türkiyə və Azərbaycan arasında hərbi ittifaq haqda sazişin vaxtı çatıb..."

**Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan iyulun 9-da andiçmədən sonra xaricə ilk səfərini Azərbaycana edəcək. İyulun 10-da Şimali Kipr Türk Cümhuriyyətinə baş çəkən Ərdoğan eyni gündə, yəni sabah Azərbaycana gələcək. Şimali Kiprin dünya birliyi tərəfindən tanınmamış dövlət olduğunu nəzərə alsaq, bu, əslində elə xaricə ilk səfərin ölkəmizə edilməsi anlamı verir.**

Səfər ərəfəsində R.T.Ərdoğan Türkiyə ilə Azərbaycan arasında münasibətlərinin ən yüksək səviyyədə olduğunu və daha da inkişaf edəcəyini deyib. Türkiyə prezidenti həmçinin, qeyd edib ki, yeni seçilmiş prezident qismində ilk səfərini məhz Azərbaycana edəcək. O, ölkəmizi ziyarətdən sonra 11-12 iyul tarixində keçiriləcək NATO sammiti ilə əlaqədar Brüsselə yollanacaq.

*****

Türkiyə dövlət başçısının seçkisonrası bu jesti artıq illərdir formalaşmış bir ənənə halını alıb. Ərdoğanın bu dəfə də seçildikdən sonra xaricə ilk səfərini Azərbaycana eləməsi hər şeydən öncə iki qardaş ölkənin dost-müttəfiqliyinin sarsılmazlığı, Ankara üçün Azərbaycanın məxsusi önəm daşıdığı haqda dünyaya aydın bir mesaj verilmiş olacaq. Türkiyə-Azərbaycan birliyi isə hazırda bütün əməkdaşlıq sferalarını əhatə edir və ilbeil dərinləşir. Xüsusən də energetika, təhlükəsizlik, hərbi və hərbi-texniki sahələrdə ikitərəfli əlaqələr yüksələn xətlə inkişafdadır.

Türkiyə prezidentinin budəfəki ziyarəti həm də qəliz və təhlükəli regional situasiyaya təsadüf eləməsi ilə diqqət çəkir. Bura qonşu və işğalçı Ermənistanda hakimiyyət çevrilişinin yaratdığı yeni reallıqlar, təcavüzkar ölkənin yeni populist rəhbərliyinin avantürist davranışı və təhlükəli gedişləri də daxildir. Şübhə yox ki, tərəflər bununla bağlı da vahid mövqe sərgiləyəcək və düşmən tərəfə növbəti ismarışlar göndərəcək. Söhbət həmçinin, həlli uzanan Qarabağ məsələsindən və xeyli dərəcədə artan müharibə riskindən gedir.

Bəzi məlumatlara görə, Bakı səfəri çərçivəsində iki ölkə arasında yeni sənədlərin imzalanması da mümkündür. Bir sözlə, budəfəki ziyarət də rutin xarakter daşımayacaq və ən azından, mühüm bəyanatlar, mesajlarla yadda qalacaq.

*****

"Ərdoğanın budəfəki səfəri tarixi xarakter daşıyacaq. Burada imzalanacaq sənədlər isə səfərin əhəmiyyətini daha da artıracaq". Sabiq dövlət müşaviri Qabil Hüseynli mətbuata açıqlamasında belə deyib. Politoloq hesab edir ki, bununla Türkiyə Azərbaycana olan ehtiramını bir daha sübut etməklə yanaşı, Azərbaycanın Türkiyə üçün geostrateji əhəmiyyətini də ön plana çəkir.

"Bu, eyni zamanda, o deməkdir ki, bütün məsələlərdə Türkiyə Azərbaycanın yanındadır. Azərbaycanın problemi Türkiyənin problemi, Azərbaycanın uğuru isə Türkiyənin uğuru kimi qarşılanır" - analitik bildirib.

Politoloqa görə, hazırda Bakı-Ankara münasibətləri olduqca rəvan inkişaf edir: "Azərbaycanla Türkiyə arasındakı ticarətin ümumi dövriyyəsi 10 milyard dollara yaxınlaşır. Türkiyə iqtisadiyyatına ən böyük sərmayə yatıran ölkələrdən biri Azərbaycandır. Bu günə kimi Türkiyə iqtisadiyyatına 30 milyard dollardan çox sərmayə yatırılıb. Habelə, iki ölkə arasındakı ticarət dövriyyəsi ilbeil artır. Azərbaycanla Türkiyə arasında hədəf kimi nəzərdə tutulan ən mühüm məsələlərdən biri iki ölkənin hərbi-siyasi ittifaqının reallaşmasıdır. Azərbaycan uzun müddətdir Türkiyə ilə hərbi-siyasi sazişin bağlanmasına, iki ölkə arasında hərbi ittifaqın mövcudluğunu həyata keçirməyə can atır. İndiyədək Türkiyədə parlamentdə belə bir ittifaqın yaradılması üçün razılıq əldə etmək bir qədər çətin idi. Amma hazırda hakim koalisiya parlamentdə yerlərin əksəriyyətini əldə edib. Prezident üsul-idarəsinə keçid isə Ərdoğanın hakimiyyətini xeyli gücləndirib. Zənnimcə, bu səfər zamanı iki ölkə arasında hərbi-siyasi münasibətləri daha yüksək səviyyəyə qaldıra biləcək saziş imzalana bilər".

Politoloqun qənaətincə, bu sazişin imzalanması həm ölkədə qanunvericilik səviyyəsində, həm də NATO ilə razılaşdırılmış şəkildə mümkündür: "Çünki Ərdoğan kifayət qədər müstəqil siyasət aparır. Bu siyasət nəticəsində Azərbaycan üçün çox önəmli olan belə bir sazişin imzalanmasına nail ola bilərik. Həmin saziş imzalanarsa, artıq Qarabağ sırf Azərbaycanın problemi olmaqdan çıxar və Türkiyənin də problemi kimi qəbul edilə bilər. Bu, imzalanacaq sənədin müddəalarından asılı olacaq. Güman edirəm ki, Türkiyə artıq Azərbaycanın ərazi bütövlüyü məsələsində daha qətiyyətli addımlar atmaq üçün belə bir sazişin imzalanmasına gedəcək".

Xatırladaq ki, Ərdoğan Qarabağ problemini özünün seçki platformasına da daxil etmişdi...

*****

Qeyd olunduğu kimi, Bakıdan sonra Ərdoğan Brüsselə - NATO sammitinə yollanacaq. Azərbaycan prezidenti İlham Əliyevin Alyansın sammitə qatılıb-qatılmayacağı dəqiq bilinmir. Ermənistanın baş naziri Nikol Paşinyanın isə Brüsselə gedəcəyi gözlənilir. Onun Belçika paytaxtında NATO baş katibi Yans Stoltenverqlə görüşü olmalıdır. Paşinyan şübhə yox ki, ABŞ prezidenti D.Trampla şəkil çəkdirməyə də can atacaq. Amma erməni baş nazir bu səfərə Kremlin qıcıqlı reaksiyasının da fərqindədir.

"Əgər Brüssel sammitinin yekun mətnində qeyri-adi heç nə olmasa, Brüsselə gedəcəyəm". Bunu o, 1in.am saytına açıqlamasında deyib (Axra.az). "Ümid edirəm ki, hər şey qaydasında olacaq" - o bildirib.

Qeyd edək ki, NATO-nun adətən yekun qərarlarında konfliktlər məsələsinə də toxunulur və burada dövlətlərin ərazi bütövlüklərinə dəstək ifadə olunur. Təşkilat bundan öncəki Varşava sammitində eyni addımı atmış və o zaman Paşinyan Sərkisyan hökumətini NATO-nun mövqeyinə görə kəskin tənqid etmişdi. Paşinyan Brüssel sammitinə yollansa, bu, erməni baş nazirin Qərbə ilk səfər olacaq.

Yeri gəlmişkən, sammitin proqramına əsasən, NATO-ya üzv ölkələrin liderləri iyulun 12-də Brüssel sammiti çərçivəsində Gürcüstan və Ukrayna prezidentləri - Georgi Marqvelaşvili və Pyotr Poroşenko ilə görüşəcəklər (Paşinyan onların arasında yoxdur). "Yeni Müsavat"ın məlumatına görə, bu barədə sammitin proqramında deyilir. "İyunun 12-də dövlət rəhbərləri səviyyəsində NATO Şurasının iclası keçiriləcək və orada Gürcüstan və Ukrayna prezidentləri də iştirak edəcək" - proqramda qeyd olunur. Görüş zamanı NATO baş katibi, Gürcüstan və Ukrayna prezidentlərinin birgə bəyanatı veriləcək.

Ola bilsin, Belçika paytaxtında Ərdoğan Paşinyanla da üz-üzə gəlsin. Yaxud ayaqüstü söhbət istisna deyil. Bu zaman Türkiyə-Ermənistan sərhədi mövzusu, Qarabağ məsələsi diqqət mərkəzində ola, Ərdoğan Paşinyana onun özünü "ağıllı aparması" üçün qiymətli tövsiyəsini çatdıra bilər. Elə Bakıdan azərbaycanlı həmkarı İlham Əliyevin mesajını da...

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 146 (7035) 9 iyul 2018

**Ermənistanda inqilab yolu ilə Serj Sərkisyan iqtidarını devirib hakimiyyətə gələn Nikol Paşinyanın baş nazir seçilməsindən dünən iki ay keçdi. Paşinyanın ilk iki ayının Ermənistan və region üçün hansı vəziyyət yaratdığını politoloqlar təhlil edirlər.**

# Paşinyanın iki ayı

## Tanınmış politoloq: "O, seytnot vəziyyətində çabalaya-çabalaya qalıb"

Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, artıq arxada qalan iki ayda Paşinyanın hakimiyyət dövrünə nəzər yetirdikdə ümumiləşdirmələr etmək olar. Xarici siyasətlə müqayisədə daxili siyasətdə Paşinyanın müəyyən uğurlarını inkar etmək olmaz: "Məsələn, Qarabağ klanını xeyli dərəcədə sıradan çıxarıb, korrupsiyaya qarşı mübarizə elan edilib, ciddi kadr dəyişiklikləri aparılıb və komandasını formalaşdırıb başa çatdırmaq üzrədir. Üstəlik də Qarabağ klanının liderləri olan Robert Köçəryanın və Serj Sərkisyanın müqavimətini tam sındıra bilib. Hətta Köçəryanın ölkədən qaçdığı deyilir. Çünki onun haqqında cinayət işi qaldırılıb. Serj Sərkisyanın isə qardaşı haqqında cinayət işi qaldırılıb. Serj Sərkisyanın özü ilə bağlı da ətrafında həlqə daralmaqdadır. Bu məsələdə Paşinyanın əhalini sakitləşdirə bildiyi və həbslər dalğası, korrupsiyaya qarşı mübarizə ilə bağlı həyata keçirilən tədbirlər,



yeni kadrların işə başlaması əhali tərəfindən pozitiv qarşılanmaqdadır. Amma bütövlükdə Paşinyanın bütün vədlərini yerinə yetirə biləcəyinə inam azdır. Paşinyan xarici investisiyaları cəlb etmək, ölkə iqtisadiyyatını canlandırmaq, əhalinin maddi rifah halını yüksəltmək vədləri verib. Amma bu vədləri yerinə yetirmək üçün hələ ki, vəsaitlər əldə edilə bilməyib. Yəni Paşinyan hələ ölkənin iqtisadiyyatına ciddi donor rolunu oynaya biləcək hansısa xarici investisiyanı ölkəyə cəlb edə bilmir. Bu səbəbdən də dövlət büdcəsi Serj Sərkisyanın dövründə olduğu kimi ciddi problemlər içindədir. Odur ki, Paşinyanın verdiyi vədlərin bir çox hələ havadan asılı vəziyyətdə qalmaqdadır".

Politoloq qeyd etdi ki, Paşinyan üçün ən uğursuz sahə xarici siyasət sahəsidir: "Çünki Paşinyan iki od arasında qalıb. Rusiya ilə münasibətlər və Qərbyönümlü siyasətin həyata keçirilməsi kimi aşağıdan gələn tələblər ciddi bir sıxıntıya çevrilməkdədir. Paşinyanın özü millət vəkili olarkən Rusiyanı söyən siyasətçi kimi tanınıb və Serj Sərkisyandan Rusiyadan uzaqlaşıb Qərbə üz tutmağı tələb edən bir neçə simadan biri olub. İndi baş nazir Paşinyan Rusiya təsirindən çıxmağı düşünsə də bunun mümkünsüz olduğunu başa düşməmiş deyil".

Q.Hüseynli vurğuladı ki, Paşinyan Dağlıq Qarabağ məsələsində isə həddən artıq səbatsızlıq nümayiş etdirməkdədir və özünü seytnot vəziyyətə salıb: "Müxtəlif tezisləri irəli sürməklə özünün Dağlıq Qarabağ problemi ilə bağlı, beynəlxalq hüquqla bağlı kifayət qədər biliksiz və ya naşı olduğunu ortaya qoydu. Gah danışıqlar prosesinə Dağlıq Qarabağın cəlb edilməsi iddialarını irəli sürdü, gah dedi Ermənistanın Dağlıq Qarabağın adından danışmağa haqqı yoxdur. Paşinyanın tutduğu xətt Rusiyanın Dağlıq Qarabağ məsələsində mövqeyinə müəyyən qədər təsir göstərməyə başlayıb. Bu təsir isə heç də Ermənistanın xeyrinə deyil. Kremlin özündə müəyyən dairələrin Ermənistanda gedən proseslərdən, İrəvanın Qərbə doğru meyllən məsindən ciddi narahatlıq keçirdiyi müşahidə olunur. Ona görə də Rusiyanın Azərbaycanla yaxınlaşmasının zəruriliyi məsələsini gündəmə gətirirlər. Paşinyanın Qarabağ məsələsi istiqamətində cəhdləri dəmək olar ki, boşa çıxıb. O, Dağlıq Qarabağ məsələsində artıq ciddi tərəddüdlər keçirir. Danışıqlar prosesi onun hakimiyyətinin ilk ayında dalan vəziyyətindən çıxmadı. Bunun da günahı Paşinyandadır. İndi Rusiya danışıqlar prosesini dalandan çıxarmağa çalışır. Paşinyan Qarabağ məsələsində Ermənistanın düşdüyü labirintin içərisindən çıxa bilmir. Amma ona təzyiqlər davam edir. Paşinyan üçün kifayət qədər çıxılmaz vəziyyət yaranır. Ya o siyasi uzaqgörənlik nümayiş etdirib dünya praktikasına, beynəlxalq hüququn normalarına uyğun hərəkət etməyi özündə güc tapmalıdır, ya da həm daxildən, həm də xaricdən onun üçün ciddi problemlər yaradıla bilər".

Politoloq bütün bunları ümumiləşdirərək belə qənaətə gəlməyin mümkün olduğunu bildirdi ki, Paşinyan daxildə verdiyi sosial vədləri yerinə yetirməklə, əhalinin, maddi rifah halını yüksəltməklə bağlı, ölkəyə xarici sərmayənin dəvət edilməsi ilə bağlı verdiyi vədləri hələ ki, yerinə yetirə bilmir. Xarici siyasətdə və Dağlıq Qarabağ məsələsində Paşinyan seytnot vəziyyətində düşüb: "O, seytnot vəziyyətində çabalaya-çabalaya qalıb".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Jirinovskinin Türkiyədəki inauqurasiyaya dəvət almasının sirri

## Elxan Şahinoğlu: "Ərdoğan ondan istifadə etməyi özünə qəbahət saymır"
## Əhəd Məmmədli: "Bu, rus siyasətində Jirinovskinin əhəmiyyətini göstərir"

**Rusiya Liberal-Demokrat Partiyasının (RLDP) lideri Vladimir Jirinovski prezident Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimində iştirak etmək üçün 8-9 iyul tarixlərində Türkiyədə səfərdə olacaq. Axar.az xəbər verir ki, bu barədə partiyanın mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, Ərdoğan şəxsən Jirinovskiyə dəvət göndərib. RLDP-dən olan digər deputatlar da səfər zamanı partiya liderinə yoldaşlıq edəcəklər.**

Hər zaman türk dünyası barəsində sərsəm fikirlər səsləndirən Jirinovskini Türkiyə rəhbərinin andiçməsinə dəvət etməsi maraq doğurub. Kremlin "təlxəyi" sayılan rus siyasətçinin belə bir dəvət alması Azərbaycanda da müzakirələrə yol açıb. Bu istiqamətdə ən müxtəlif mövqelər səslənməkdədir. Çoxları hesab edir ki, bu dəvət daha çox hazırda ən yüksək səviyyədə olan Türkiyə-Rusiya münasibətlərindən doğur. Bunun əksini düşünənlər də az deyil.

Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu hesab edir ki, Ərdoğan Jirinovskidən istifadə etməyi özünə qəbahət saymır: "Jirinovski türkoloq olsa da, türk dünyasını sevmir, ona nifrət edir. Ancaq Jirinovski həm də pulgir siyasətçidir. O bir müddət əvvəl Türkiyəyə dəvət edilmişdi. Türkiyədə yüksək səviyyədə qəbul edildi, hətta prezident Rəcəb Təyyub Ərdoğanla görüşü də təşkil olundu. Buna qədər "Türkiyə dağıdılmalıdır", "İstanbul ələ keçirilməlidir" deyən Jirinovski Ərdoğanla görüşdən sonra başqa mahnı oxumağa başladı. Jirinovski artıq Türkiyəni Rusiyanın müttəfiqi adlandırır və bu ölkə ilə əməkdaşlığın genişləndirilməsinin vacibliyini dilə gətirirdi. Bu, Ərdoğanın xeyrinə idi. Jirinovski siyasi kloun olsa da, onun Rusiyada kifayət qədər tərəfdarı var və partiyası həmişə parlamentdə yer qazanır. Onu bəzən Kremlin "danışan dili" də adlandırırlar. Ona görə də Ərdoğan Jirinovskidən istifadə etməyi özünə qəbahət saymır. Buna baxmayaraq, onu nəzərə almaq lazımdır ki, Jirinovskinin ipinin üstünə odun yığmaq da mümkün deyil. Məsələn "Rossiya 1" telekanalında "Vladimir Solovyovla axşam" siyasi tok-şousunda çıxış edən erməni əsilli hərbi-siyasi ekspert Semyon Baqdasarov bir müddət öncə Azərbaycanın Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfər edən Rusiya Dövlət Dumasının Liberal Demokrat Partiyasından olan deputatı Dmitri Savelyevi məhv etməyə çağırdı. Jirinovski proqramda deputatını müdafiə etməkdənsə, Baqdasarovun "məhv edilməlidir" sərsəmləməsinə "razıyam" cavabını verdi. Ayrı vaxt Jirinovski nərildəyir, Baqdasaryanın qarşısında isə dovşana dönmüşdü. Halbuki, Jirinovski Türkiyəyə getdiyi kimi Azərbaycana da dəvət edilmiş və prezident İlham Əliyevlə görüşmüşdü. Odur ki, Jirinovski kimilərə etibar yoxdur. Ancaq yəqin Ankarada düşünürlər ki, ondan hələ istifadə etməyə dəyər. Bir gün Rusiya-Türkiyə münasibətlərindən yenə nəsə sual meydana gəlsə, istisna etmirəm ki, Jirinovski yenidən əsl simasını ortaya qoyacaq və Türkiyəni düşmən dövlət adlandıracaq".



"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli Ərdoğanın Jirinovskinin kimliyini yaxşı tanıdığını bildirdi: "Bu - bir siyasətdir. Jirinovski təlxək də olsa, Kremlin təlxəyidir. Kremlin təlxəyi də özlüyündə ciddi və önəmli statusdur. Orta əsrlərdə Avropada rəsmən kralın təlxəkləri var idi. Bu təlxəklər əsilzadələrdən də olur. Kral deməiyi sözləri, mesajları onların dili ilə dedizdirir, etdirirdi. Ərdoğan da əslində Jirinovskinin kim olduğunu yaxşı bilir və bu aspektdən Jirinovskini dəvət edib. Jirinovski həmçinin Türkiyə və türk dünya üzrə ekspertdir. Təcrübəli agentdir. İllərdir agent olaraq Türkiyədə də fəaliyyət göstərir. Həm də unutmayaq ki, rus parlamentində təmsil olunan üçüncü partiyanın sədridir. Bütün bunlar rus siyasətində Jirinovskinin əhəmiyyətini göstərir. Təbii ki, bu dəvət həmçinin, Türkiyə-Rusiya münasibətlərinin yaxınlığından da xəbər verir. Türkiyə çalışır ki, Rusiya siyasətinin üst düzəyində mövqelərini möhkəmləndirsin. Yəqin bu andiçmədə Rusiya heyəti böyüklüyü ilə seçiləcək. Bu bir daha Türkiyə-Rusiya münasibətlərinin yaxın olduğunu göstərəcək. Amma yenə də unutmayaq ki, Jirinovski dünən düşmən, bu gün dost, sabah yenə də düşmən olacaq. Kreml nə istəyirsə, onu da edəcək. Jirinovski Kremlin istəyi ilə bu gün dost, sabah yenə də düşmən libası geyinəcək".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

**İyulun 7-də yazıçı Cəlil Cavanşir Facebook üzərindən həyata keçirdiyi canlı yayım zamanı intihara cəhd edib. Yazıçı canlı yayımda yaşamaqdan yorulduğunu, həyatdakı bir çox şeylərlə barışmadığını bildirib, qollarını kəsici alətlə cızmağa başlayıb. Yazar bir müddət qolları və əlləri qanlı vəziyyətdə canlı yayımı davam etdirib və bu davranışını “ölüm çox şeyi dəyişir, dostlar” sözləri ilə əsaslandırıb.**



# Gənc yazıçının gündəmə çevrilən intihar cəhdinə ilginc reaksiyalar: şou, yoxsa?..





## Cəlil Cavanşirin dostları olaydan danışdılar; **psixoloq:** “Bu cür hadisələr insanlığa böyük zərbə vurur”; **hüquqşünas:** “Özünə qəsd cinayət əməli sayılmır, amma...”

Canlı yayımı izləyən yazıçının dostları, sosial şəbəkə izləyiciləri onu bu addımdan çəkinməyə, övladlarını, ailəsini düşünməyə çağırıb. Bir qədər sonra yazıçının qardaşının onu tapması və vəziyyətinin yaxşı olması haqda məlumat yayıldı. Yazıçının özü isə bir gün sonra sosial şəbəkədə hadisə barədə yazaraq, peşman olduğunu bildirib: “Dünən atdığım addımla bağlı uzun-uzadı izahata ehtiyac duymuram. Haqqımda yazılan bütün fikirləri oxumaq imkanım olmadı, amma xeylisini oxudum. Kim nə istəyir düşünsün, kim necə istəyir yozsun. Zərrə qədər narahat deyiləm, heç kəsdən incimirəm, heç kəsi qınamıram. Nə qədər çətin olsa da, yaşamağa davam etməyə məcburam. Dünən (srağagün-red.) mənim üçün narahat olan, yanımda olan, dəstək olan bütün dostlara təşəkkür edirəm. Mən sizin sevginizdən, qayğıkeşliyinizdən utandım, mütəəssir oldum. Sizləri incitdiyim, narahat etdiyim üçün peşmanam”.

Bir qədər sonra yazıçının profilini bağlayaraq, doğulduğu Oğuz rayonuna getdiyi məlum olub. Bu barədə yaxınları məlumat yayıb. Onlar deyiblər ki, peşəkar psixoloqun məsləhəti ilə bu addımı atıblar: “Məsləhət oldu ki, Cəlili şəhər mühitindən uzaqlaşdıraq”.

Qeyd edək ki, Cəlil Cavanşir canlı yayımda intihara cəhd edən zaman və ondan sonra da bir çox izləyicilər, tanınmış ictimaiyyət nümayəndələri onun bu davranışını şou adlandıraraq tənqid edib, bu cür hadisənin cəmiyyət, xüsusən də gənc və yeniyetmələr üçün təhlükəli olduğunu bildiriblər.

Ümumiyyətlə, son illərdə gənc yazar və şairlərin intiharı və yaxud intihara cəhd hadisələri artmağa başlayıb. Məsələn, ötən il gənc yazar Mövlud Mövlud özünü 17-ci mərtəbədən ataraq intihar etmişdi. Bu ilin yanvar ayında isə 23 yaşlı şair Məlik Cahan Bakı Bulvarında özünü dənizə atmışdı. Digər şair və yazıçılar isə zaman-zaman sosial şəbəkədə vida statusu paylaşaraq, intihar edəcək mesajlar verirlər. Bu isə cəmiyyətdə böyük narahatlıq doğurur, insanları stressə salır, neqativlik yaradır.

Bəs yazıçı Cəlil Cavanşiri intihara sövq edən əsl səbəb nə olub?

Bu barədə olay zamanı yazıçının yanında olmuş ilkin şəxslərdən biri “BakiPost” saytının baş redaktoru Elçin Zahiroğlu “Yeni Müsavat”a danışdı: “Ora getməkdə məqsədim Cəlili ölümdən xilas etməkdən daha çox, Facebook izləyicilərini bu dəhşətli mənzərəni seyr etməkdən xilas etmək idi. Fikirləşdim, tez çatım və onun canlı yayımını dayandırım. O, ”ölməyə də imkan vermirlər" ifadəsini tez-tez deyirdi, amma tərzində daha çox yaşamağa hamıdan güc almağa, hamının köməyinə arxalanmaq istəyi var idi. Ötən gün onunla çox da söhbət edə bilmədim. Çünki yanına gedib çatan üçüncü adam idim. Lakin sonra təcili tibb yardım, polis əməkdaşları gəldi. Həmin hadisədə müşahidə etdiyim bu idi ki, o, hamı üçün darıxmışdı və istəyirdi ki, hamı gəlib onu ziyarət etsin. Mən ondan soruşdum ki, “sən nə istəyirsən”, dedi ki, “mən ölmək istəyirəm, imkan verim ölüm”. Bildiyim qədər bu ilk intihara cəhdi deyildi. Doğrudur, o deyirdi ki, “yaşamaq istəmirəm”. Lakin düşünürəm ki, bu dediklərində səmimi deyildi. Ümumilikdə isə onun nədən intihara cəhd etməsini anlaya, hansı situasiyanın baş verdiyini müəyyənləşdirə bilmədim. Yəqin ki, ciddi bir əsas səbəb göstərə bilməz. Halı da yaxşı deyildi. Çalışırdıq ki, kifayət qədər bu vəziyyətdən çıxsın. Bu, çox pis hadisə idi. Ən pisi isə bu idi ki, olayı canlı yayımda yayımlayırdı, çoxlu da izləyənlər var idi. Şəxsən mənə çox pis təsir etmişdi".

Cəlil Cavanşirin yanına gedən ilk dostlarından biri şairə Könül Səid isə məlum hadisə baş verməzdən bir neçə saat əvvəl şairi gördüyünü və onun əhvalının yaxşı olduğunu bildirdi: “Düşünürəm ki, ona nəsə psixoloji təsir olub. Ötən gün gündüz saatlarında marketdə onunla görüşüb, deyib-gülüb, ayrılmışdıq. Evə gələndə isə canlı yayımda həmin vəziyyəti gördüm. Düşünürəm ki, yəqin nəsə eşidib və yaxud nəsə olub ki, bu cür addım atıb. Onun yaşadığı mənzili təxmini bilirdim. Telefonla ona zəng edib, hansı mənzildən zəng gəldiyini müəyyən etməyə çalışırdıq. Sonradan komendantla onun mənzilini tapanda məlum oldu ki, qardaşı artıq evdədir və onu sakitləşdirməyə çalışır. Evə daxil olanda Cəlil Cavanşirin huşu üstündə idi, vəziyyəti də o qədər də ağır deyildi. Bizim dediklərimizi anlayırdı. Onun qollarını bağlamağa çalışanda icazə vermirdi. Sonra tibb işçiləri gəldi. İntihara nədən cəhd etdiyini isə canlı yayımda özü izah edib. Sözün düzü, onu uzun müddət tanıyırdım və bu günə qədər ondan bu cür davranış görməmişdim və gözləmirdim. Çünki hər zaman deyib-gülən, pozitiv insan, həyatsevər olub. Atası həmin gün rayondan gəlmişdi. Yəqin ki, atası və qardaşı Oğuza aparıb”.

Psixoloq Elnur Rüstəmov isə olayın psixoloji tərəfləri haqda danışdı: “Bu məsələyə bir istiqamətdə qiymət vermək istəməzdim. Çünki burada bir çox məqamlar var, adam özü də qeyd edir ki, ”mən dəfələrlə intihara cəhd etmişəm, lakin uğursuz alınıb". Psixologiyada belə bir anlayış var - intihara meylli insanlar. Hansı ki, onlar müxtəlif narahatlıqlar yaşayanda intihar haqqında düşünə bilir və intihar fikrinə düşə bilirlər. Burada yəni daha çox maddiyyatla bağlı deyil, alkoqolun, narkotik maddələrin təsiri altında olub bu cür addımlar ata bilərlər. Bu cür adamlarl, yəni canlı yayımda özünə xəsarət yetirənlərə normal şəxs kimi qəbul etmək olmur. Əgər insanın doğrudan da intihar etmək fikri varsa, onu canlı yayımda etməz. Digər tərəfdən də özü də qeyd edir ki, dəfələrlə intihar edib, lakin uğursuz alınıb və bu dəfə uğurlu olacaq, amma yenə də alınmır.

Nəzərə alaq ki, bu cür addım şair üçün yaxşı hal deyil. Əgər narahatçılıq varsa, bunu sivil yollarla həll etmək lazımdır. Yazıçı insanları yaşamağa sövq etməli, stimul verməli, yaşamaq yollarını açmalıdır. O yaşamaq yolları şairin yazdığı əsərlər, şeirlər, kitablar olur. Ümumi götürəndə mən bu hadisəni doğru hesab etmirəm. Mühakimə etmək fikrim də yoxdur. Lakin hər halda olmasaydı daha yaxşı olardı. Mən inanıram ki, bu hadisədən travma alanlar da oldu. Sabah anoloji hadisə baş verərsə, bu dəfə heç kəs o insana inanmayacaq".

Psixoloq bu cür olayların insanlar üzərində hansı təsirlər buraxa bilməsindən də söz açdı: “İlkin hallarda insanlarda müəyyən əhval-ruhiyyənin dəyişməsinə, özlərini narahat hiss etməsinə gətirib çıxaracaq. Lakin bütövlükdə bu cür hadisələr insanlığa böyük zərbə vurur. Nəticədə bu cür hadisələr insanlar üçün adiləşir. Tutaq ki, eyni hadisəni sosial şəbəkələrdə bir-iki dəfə gördükdən sonra ona adi baxmağa başlayacam. Dolayısı ilə bir insanın ölümü başqaları üçün statistikaya çevriləcək, insan faciəsinə deyil. Bu həm də insanların bir-birinə qarşı inamsızlığına, biganələşməsinə gətirib çıxaracaq. Sonra da suallar ortaya çıxır ki, cəmiyyətdə bu qədər aqressiya, inamsızlıq haradan qaynaqlanır? Bütün bunlar bu cür hadisələrdən başlayır. Ona görə də bu cür olaylarda diqqətli olmaq lazımdır. Doğrudur, bu cür olayları dünya ədəbiyyatında baş verənlər ilə müqayisə edə bilərlər. Məsələn, Cek London və yaxud digərləri ilə. Lakin bu analogiya qüsurludur. Protokol qaydaya əsasən, həmin şəxs psixatirik xəstəxanaya yerləşdirilməli, müalicə almalı, reabilitasiya prosesi keçməlidir”.

Psixoloq Xanım Niftəliyeva da məsələ ilə bağlı sosial şəbəkədə maraqlı təhlil verib. Psixoloq qeyd edib ki, şairin bu davranışı psixoloji xəstəlikdir:

“Cəlil Cavanşirin Facebook-da canlı olaraq intihara cəhdini minlərlə insan izlədi. Onu qınayanlar da oldu, haqq qazandıranlar da, hətta bu bir şoudur deyənlər də.

Əslində insanın özünə sui-qəsd etməsi normal hal deyil. İndi bütün dünyada insanlar edamların aradan qaldırılmasına çalışır və insan həyatına son verməyin düzgün olmadığı düşünülən bir dövrdə kiminsə özünə sui-qəsd etməyi, intiharı təbii ki normal qarşılanmır.

Əgər sosial şəbəkədə canlı yayımı açaraq izləyiciləri, dostları qarşısında bunu edirsə, əminliklə deyə bilərik ki, bu psixoloji xəstəlikdir. Ola bilər ki, həmin an psixoloji sarsıntı keçirib, affekt vəziyyətində olub. O özünə qəsd edərək geridə qalan nə qədər insana travma yaşadır, acı çəkdirir. Əgər bu canlı yayımda paylaşılıbsa, yəqin ki dostluğunda olan kiməsə nümayiş etdirmək məqsədi, yaxud digər səbəblə edib. Həmin şəxslə psixoloq, mütəxəssis işləməlidir. Onunla ciddi məşğul olub psixoloji vəziyyəti bərpa etmək lazımdır. İzləyicilərə olan təsirinə gəldikdə isə, onun dostluğunda da dostları, qohumları, onu sevənlər və sevdikləri var".

Psixoloq qeyd edib ki, bu hadisədən qaynaqlanaraq, zövq alaraq həmin hadisəni təkrarlamaq istəyənlər olacaq: “Bu, qaçılmazdır. Özünü yazıq kimi göstərmək istəyən insanlar tapılacaq və diqqət çəkmək üçün, yaxud da kimsə məni canlı yayımda görüb gələcək və məni xilas edəcək, necə ki o yazarı xilas etdilər ümidi ilə buna cəhd edənlər də ola bilər. Amma hər dəfə insanın şansı gətirməyə və həyatına son qoya bilər”.

Bəs intihara cəhd cinayət məsuliyyəti yaradırmı?

Hüquqşünas Əsabəli Mustafayevin sözlərinə görə, özünə qəsd cinayət əməli sayılmır: “Yalnız burada mənəvi məsuliyyət ola bilər. Yəni, intihara cəhd edən şəxs nə inzibati, nə mülki məsuliyyət daşıyır. Yalnız bir daha qeyd edirəm, burada dostları, yaxınları qarşısında mənəvi məsuliyyət ola bilər. Həmçinin, əgər onun canlı yayım görüntülərindən kimsə şoka düşüb, psixoloji gərginlik yaşayarsa, səhhətinə hər hansı ziyan dəyərsə, mülki qaydada ona qarşı iddia qaldıra bilər. Yox əgər belə bir şikayət yoxdursa, həmin şəxs heç bir məsuliyyət daşımır”.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ məsələsində qeyri-müəyyənlik dövrü bitir

## Sülh danışıqlarının bərpasına kövrək ümid yarandı, ancaq...; **rusiyalı tanınmış analitik:** "Müharibənin "donu" uzun sürə bilməz..."

**Ermənistanda küçə etirazları nəticəsində baş vermiş hakimiyyət dəyişikliyindən iki ay ötür. Ötən müddət xüsusən də İrəvan-Moskva münasibətlərində qeyri-müəyyənliyin yaşanması ilə müşahidə olundu. Sözdə Rusiyaya sadiq olduğunu bəyan eləsə də, Qərbə kurs götürdüyünü əməldə gizlədə bilməyən erməni baş nazir Nikol Paşinyan Kremldə əməllicə məyusluq və şübhələr yaratdı - Moskva rəsmiləri bunu açıq bürüzə verməsələr də.**




Rusiyadan Paşinyan hökumətinə xəbərdarlıq mesajları isə hələ ki, fərqli kanallarla, məsələn, Kremlə yaxın KİV-lər və ekspertlər, habelə tanınmış ictimai-siyasi şəxslərin dili ilə çatdırılmaqdadır. Siyasi müşahidəçilərə görə, iyulun 1-də Cocuq Mərcanlıda "Azərbaycan Rusiyanın bölgədə əsas strateji müttəfiqidir" mövzusunda keçirilən birgə konfrans da eyni məqsəd güdüb. Təsadüfi deyil ki, konfrans və orada Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinin vacibliyi barədə verilən bəyanatlar işğalçı ölkədə ciddi təlaş yaradıb.

*****

Tanınmış rusiyalı analitik Qriqori Trofimçuk hesab edir ki, Cocuq Mərcanlı tədbiri Rusiyanın birbaşa rəsmi mövqeyi olmasa da, Azərbaycan bununla növbəti dəfə deputat korpusu da daxil, Rusiya ictimai-siyasi xadimlərindən ikitərəfli əlaqələrlə bağlı möhkəm zəmanət almış oldu. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə o, rusdilli Vesti.az portalına açıpqlamasında söyləyib.

"Bu, öz-özlüyündə artıq yaxşıdır. Ancaq Dağlıq Qarabağ və ətrafındakı 7 rayon guya qaytarılacaq və ya qaytarıla bilər, bu, artıq başqa məsələdir və sözlə həll olunmur. İstənilən halda, konfliktinin iştirakçılarına göstərildi ki, əgər hazırda dayanıqlı olmayan Ermənistanda proses nəsə ayrı cür getsə, Azərbaycan lazım bildiyi şəkildə, tamamilə sərbəst hərəkət edə bilər", - deyə politoloq qeyd edib və bununla da faktiki şəkildə Paşinyan hökumətinin Rusiyaya münasibətdə özünü "nankor aparacağı" təqdirdə Kremlin Azərbaycanın əli ilə onu cəzalandıra biləcəyinə işarə vurub.

Politoloqun fikrincə, yaranmış vəziyyətdə Ermənistan nə etməli olduğu halda ciddi düşünməyə başlayacaq: "Bəlkə, onun baş naziri Paşinyana kimsə vaxtında, kənardan hazırkı şəraitdə nə etməli olduğunu deyəcək?"

Qarabağ münaqişəsi zonasında yeni müharibə ehtimalına gəlincə, analitik deyib ki, müharibə daim kandardadır: "Özü də təkcə Qarabağda yox. Artıq Naxçıvan istiqamətində də münaqişə genişlənir. 2016-cı ilin aprelində göründü ki, müharibənin "dondurulması" uzun sürə bilməz. Hərçənd əsl müharibəni münaqişə tərəflərindən heç biri istəmir. Gərginlik artır və sadəcə olaraq bu gərginlik özbaşına heç yerə çıxıb gedən deyil. Yeri gəlmişkən, çoxları, o cümlədən Azərbaycanın rəqibləri Azərbaycanın hərəkətlərini, o cümlədən onun hərbi paradlar şəklində güc nümayişini düzgün şərh eləmirlər. Kim hücum eləmək istəyirsə, sakitcə bunu edəcək. Azərbaycan isə göstərmək istəyir ki: bizim içimizə soxulmaq, bizə baş qoşmaq təhlükədir, çünki İrəvanda baş verənləri sonadək dərk eləmir. Sərkisyan Bakı üçün daha şəffaf idi. Ancaq əsas problem Qarabağın özündədir. Nədən ki, Ermənistanda birinci adamın dəyişməsindən sonra orada hadisələr ayrı axar alıb və biz görürük ki, Nikol Paşinyan necə Dağlıq Qarabağa böyük diqqət göstərir. İstisna eləmirəm ki, Azərbaycan Qarabağı həm ondan, həm də Ermənistandan daha etibarlı qoparmaq üçün hansısa təhrikçi addıma cəhd edə bilər".

*****

Vəziyyəti gərginləşdirən başqa bir amil isə sülh danışıqlarının da xeyli müddətdir dalanda qalmasıdır. Ermənistanda çevriliş nəticəsində hakimiyyətə gəlmiş qüvvələr hələ də konstruktiv danışıqlara başlamağa hazır görünmür. Paşinyan hökumətinin başı hələ ki, daxildə "əcinnə ovu"na qarışıb. Hərçənd, bu arada Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ilk görüşü üçün hazırlıq getdiyi haqda xəbərlər yayılıb. Lakin Məmmədyarov-Mnatsakanyan təmasının konkret hansı tarixdə reallaşacağı bilinmir.

"Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşü ilin sonunda yox, daha tez keçiriləcək". Bunu Ermənistanın xarici işlər naziri Zoqrab Mnatsakanyan deyib. Onun sözlərinə görə, tərəflər artıq bununla bağlı razılaşma əldə ediblər: "Bizim üçün vacib olan Qarabağ konfliktinin həllindəki danışıqlar prosesinin dinamikasını qoruyub saxlamaqdır. Azərbaycanın xarici işlər naziri ilə görüş barədə razılıq var". Erməni nazir görüşdə atəşkəsin gücləndirilməsi məsələsinin də müzakirə ediləcəyini bildirib.

*****

Ancaq belə görünür ki, əsas vasitəçi dövlət kimi Rusiya problemin dinc həllində hansısa yeni təşəbbüsdə bulanmaq niyyətində deyil. Hər halda şimaldan, Rusiya XİN yetkililərindən (nazir Sergey Lavrov, Mariya Zaxarova), digər rəsmilərdən vaxtaşırı yalnızca ənənəvi, növbətçi, şablon bəyanatlar eşitməkdəyik.

Rusiya təhlükəsizlik şurasının katibi Nikolay Patruşev o sırada növbəti oldu. Patruşev bildirib ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinin mərhələli və sülh yolu ilə həllinin tərəfdarıdır. Bu fikri o, erməni həmkarı, Paşinyanın qərbyönlü kadrlarından olan Armen Qriqoryanla görüşündə dilə gətirib. Sual yaranır: həqiqətən Rusiya Təhlükəsizlik Şurasının katibi Dağlıq Qarabağ münaqişəsinin mərhələli həllinin tərəfdarıdır?

Politoloq Elxan Şahinoğlu buna şübhə edir. O, Patruşevin açıqlamasında bir sıra məqamlara diqqət yönəldib: "Patruşev onu da qeyd edib ki, Rusiya regionda sabitliyin bərqərar olunmasının, habelə Qarabağ probleminin bütün tərəflərin maraqları nəzərə alınmaqla, sülh yolu və mərhələli həllinin tərəfdarıdır. Bu fikrin əsas yükü "bütün tərəflərin maraqları nəzərə alınmaqla" ifadəsinin üzərindədir. Yəni tərəflərdən biri - Ermənistan və ya Dağlıq Qarabağ separatçıları mərhələli həll planını istəmirlərsə onları nəyəsə məcbur etmək düzgün deyil. Patruşevin sözlərindən çıxan nəticə budur. Ona görə də, rusiyalı rəsmilərin və diplomatların sətiraltı ifadələrinə diqqət yetirmək lazımdır. Necə deyərlər, şeytan detalda gizlənib".

"Dağlıq Qarabağ münaqişəsinin mərhələli həll planından başqa yolla həlli qeyri-mümkündür". Bunu isə axar.az-a Patruşevin erməni həmkarı Armen Qriqoryanla görüşünü şərh edən deputat, politoloq Rasim Musabəyov deyib. Deputat bildirib ki, Rusiya vaxtilə mərhələli həll planının müəllifi olub: "Vladimir Kazimirov hələ 1997-ci ildə Minsk Qrupunun həmsədri kimi bu təkliflə çıxış etmişdi. Sadəcə olaraq, ermənilər sonradan mərhələli həll planının əleyhinə çıxdılar. Ancaq bu məsələyə realist yanaşan hər bir siyasətçi və diplomat anlayır ki, indiki mərhələdə məsələnin başqa yolla həlli mümkün deyil. Ya münaqişə dondurulur və bu vəziyyət sonda müharibəyə aparıb çıxarır, ya da Qarabağ məsələsi mərhələli həll planı üzrə çözülür".



# Serj Sərkisyanın qardaşı və qardaşı qızı axtarışa verildi

**Ermənistanın sabiq prezidenti Serj Sərkisyanın qardaşı Levon Sərkisyan qeyri-qanuni yolla zənginləşmə və əmlakına dair bəyannamə təqdim etməkdən boyun qaçırmaqda ittiham edilərək barəsində axtarış elan edilib.**

Bu barədə Ermənistan Xüsusi İstintaq Xidmətinin məlumatında bildirilir (tvreal.az).

Bundan başqa, analoji ittiham üzrə Levon Sərkisyanın qızı Ani Sərkisyan barəsində də axtarış elan edilib. Məhkəmə Levon Sərkisyan barəsində həbs qətimkan tədbiri seçib, Ani və onun qardaşı Narek barəsində isə ərazini tərk etməmə qərarı çıxarıb.

Qeyd edək ki, Levon Sərkisyan 1998-ci ildən Suriya, Tunis və İordaniya kimi ölkələrdə səfir postunda çalışıb. O, 2010-cu ildən xüsusi tapşırıqlar üzrə səfir kimi fəaliyyət göstərir. Statusuna uyğun olaraq təqdim etdiyi bəyannamələrdə əmlakı və gəlirləri barədə dəqiq məlumatlar əks etdirməlidir. İyunun 25-də Serj Sərkisyanın digər qardaşı Aleksandr Sərkisyan qanunsuz silah saxlamaqda ittiham olunaraq həbs edilib.

YENİ MÜSAVAT
N 146 (7035) 9 iyul 2018

**150 manata görə adam öldürməkdə ittiham edilən şəxslərin məhkəməsi davam edib. Onlar bir-birlərini günahlandırırlar. Hər ikisi qətli törətmədiyini deyir.**

# "Biz kişiyik, kimisə arxadan vurmarıq"

## 25 yaşlı gənci 12 bıçaq zərbəsi ilə kim öldürüb?

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qəsdən adam öldürməkdə təqsirləndirilən Vüqar Əlizadə və İlham Əliyevin cinayət işi üzrə məhkəmə iclası keçirilib.

Hakim Rahib Salmanovun sədrliyi ilə keçirilən prosesdə İlham Əliyevin xanımı Xuraman Əliyeva əlavə şahid kimi ifadə verib. Məhkəməyə öz təşəbbüsü ilə gələn X.Əliyeva baş verən hadisə ilə bağlı bildiklərini danışmaq istədiyini deyib. Hadisədən sonra polis tərəfindən dindirilən X.Əliyeva bu işdə şahid kimi tanınmamasına etiraz edib. Hakim onun dinlənilməsini istəyib. X.Əliyeva ilk dəfə polisə verdiyi ifadəsinin düzgün yazılmadığını deyib və bildirib ki, həmin işi aparan müstəntiq artıq vəzifəsindən uzaqlaşdırılıb.



Hakimin elan etməsi ilə məlum olub ki, Xuraman Əliyeva istintaqa ifadəsində əri İlham Əliyevin problemli adam olduğunu, gəncləri yoldan çıxardığını deyib. Əlavə edib ki, baş verən cinayət əməlində ərinin də əlinin olmasına şübhə etmir.

Xuraman Əliyeva istintaqdakı ifadəsinin düzgün yazılmamasını belə izah edib: "Mən savadsız adamam. İfadəni oxumamışam. Özüm ora getməmişəm. İmza at deyiblər atmışam. Bilmirdim ki, belə sözlər yazılıb".

Xuraman Əliyeva söyləyib ki, həmin gecə ərinə zəng edərək evə gec gəlməsinin səbəbini soruşub: "Dedim ki, İlham, hardasan? Dedi ki, Vüqar adam öldürüb, onun ayaqqabısını axtarıram. Mən də dedim bəlkə içib deyə belə danışır. Sonra İlham evə gəldi. Şalvarının ancaq balağında qan izi var idi. Dedi ki, Vüqar Kamranı öldürüb".

O söyləyib ki, hadisədən bir neçə gün sonra Vüqar Əlizadənin anası və yaxınları onlara gəlib: "Mənə dedilər ki, evi satıb kənddən gedin. Mən də dedim ki, biz niyə evimizdən getməliyik? Həmin ərəfədə İlham tutulmamışdı".

Təqsirləndirilən İ.Əliyev xanımının dediklərinə əlavələr etmək üçün məhkəmədən söz istəyib: "Xuraman düz deyir. Onlar bizə gəliblər. İstəkləri isə bu idi ki, mən deyim ki, dava zamanı bıçaq mərhumda olub. Vüqar onu vurmaq istəyən Kamranın əlindən bıçağı alıb və özünü qoruyub. Amma bu, belə olmayıb".

Digər təqsirləndirilən Vüqar Əlizadə isə hər iki şəxsin yalan danışdığını deyib. Məhkəmə Vüqar Əlizadədən qətl hadisəsi baş verən gün yaşananları bir daha danışmasını istəyib.

V.Əlizadə deyib ki, həmin gün Kamranla bir yerdə olublar. Onun sözlərinə görə, Kamran içkili olub: "Kamran pul borclu idi. Mən onunla danışdım. Sonra İlham gəldi dedi ki, mən onunla danışacam. Onlar kənara çəkilib danışdılar. Sonra aralarında mübahisə düşdü. Mən də onları sakitləşdirmək istədim. Kamran məni söydü. Sakitləşməyib daha böyük təhqirlər etdi. Əlində olan bıçağı aldım. İlham onu itələyəndə bıçaq Kamrana dəydi. Kamran qapının qarşısından yıxılanda Vüqarın üstünə düşdü. Kamran qaçanda İlham onun arxasınca getdi. Bir az aralıda bıçaqla ona bir neçə zərbə vurdu. Biz ordan çıxıb getdik".

V.Əlizadə mərhumu kürəyindən bıçaqlaması ittihamına belə cavab verib: "Bizim kənddə belə şeyə yaxşı baxmırlar. Biz kişiyik. Kimisə arxadan vurmarıq. Mən onu vurmaq istəsəm, üzbəüz vurardım".

Məhkəmə iclasında tərəflər arasında bir neçə dəfə mübahisə yaranıb. Hakim tərəflərə xəbərdarlıq edib.

Bildirək ki, hadisə Sabunçu rayonunun Maştağa qəsəbəsində baş verib. 1994-cü il təvəllüdlü Əlizadə Vüqar Bayraməli oğlu 1993-cü il təvəllüdlü Quliyev Kamran Yaşar oğlunu pul məsələsinə görə bıçaqlayaraq qətlə yetirib. Hər iki şəxs Bakıda fəhlə işləyirmiş və 23 yaşlı K.Quliyev tanışından bir müddət əvvəl borc olaraq 150 manat alıb.

V.Əlizadə tanışından pulu qaytarmasını istəyib. Lakin K.Quliyev imkanının olmadığını, ona bir neçə gün möhlət verməsini istəyib. V.Əlizadə isə razılaşmayıb, kifayət qədər gözlədiyini deyib. Onların arasında mübahisə davaya çevirilib və V.Əlizadə 25 yaşlı həmyerlisinə 12 bıçaq zərbəsi vurub.

Hadisədən sonra İlham Əliyevin də cinayət işində əli olduğu məlum olub. Hər iki şəxs qəsdən adam öldürmə maddəsi ilə ittiham olunur. Məlumata görə, bir-birinin əleyhinə ifadə verən şəxslər arasında düşmənçilik var. Bu səbəbdən onlar eyni şüşə qəfəsə salınmayıblar.

**❑ İlkin Muradov, Musavat.com**

# 4-cü mikrorayonda tikinti sakinləri ayağa qaldırdı

## Şikayətçilər aidiyyəti qurumlardan kömək istəyirlər



**Bakı şəhəri, Nəsimi rayonu, 4-cü mikrorayon, Cavadxan küçəsi 68 "A" ünvanlı binanın bir qrup sakini həyətlərində tikilən çoxmərtəbəli binanın tikintisinə etiraz edir. Sakinlərin iddiasına görə, yaşadıqları bina qəzalıdır. Bina bir neçə sm aşağı çöküb. Bu, 2003-cü ildə Fövqəladə Hallar Nazirliyi tərəfindən də təsdiqlənib.**

Xalis Quliyev adlı sakinin sözlərinə görə, "Fidan" MTK 2-3 gündür ki, ərazidə tikintiyə başlayıb: "Ondan 15-20 gün əvvəl digər binanın tikintisi başlanılıb. Bunun əsasında bizim həyətə giriş məsafəsi azalıb, uşaqların oynamağa yeri qalmayıb. Binanın tikilməsi bizim binamız üçün təhlükəlidir".

Hicran Məmmədova bildirir ki, "Fidan" MTK-nin tikəcəyi bina ilə onların yaşadığı bina arasında məsafə çox azdır: "İki bina arasındakı məsafə 15 metrdir. Amma yeni tikiləcək digər iki bina arasında isə məsafə heç 5 addım deyil. Qanunvericilikdə deyilir ki, 17 mərtəbəli binanın arasında məsafə 50 metr olmalıdır. Uşaqlarımızın oynamağa yeri qalmayıb. Körpə uşaqlar maşın təkərinin altında oyun qurub oynayırlar".

Sakinlər iddia edirlər ki, 68 "A" saylı binanın arxasında gedən tikinti zamanı binanın bəzi evlərinin divarlarında çatlar yaranıb: "Arxadakı binanın bünövrəsi qazılanda bəzi evlərdə çatlar əmələ gəlib. "Fidan" MTK-nın yanında ucaldılan binanın bünövrəsi qazılanda bizim binamız silkələnirdi. İndi siz təsəvvür edin, bu bina tikiləndə bizim binamızın aqibəti necə olacaq? Kim qarantiya verə bilər ki, sabah zəlzələ olanda binamız uçmayacaq? Bizim təhlükəsizliyimizə kim cavabdeh olacaq?"

Bina sakinləri bununla əlaqədar bir neçə dövlət qurumuna da müraciət etdiklərini deyir: "Tikinti ilə üzbəüz Bakının ən böyük məktəblərindən biri - 5 saylı məktəb yerləşir. Sentyabrda burada uşaq əlindən tərpənmək olmur. Dərslər başlayanda necə olacaq? Əraziyə böyük yük maşınları girib çıxır. Kim zamin dura bilər ki, məktəb açılanda uşaqlar o maşınların təkərləri altında qalmayacaq? Bununla bağlı Prezident Aparatına, Nazirlər Kabinetinə, Bakı və Nəsimi rayonlarının icra hakimiyyətlərinə məktubla və elektron müraciət etmişik. Hələ ki, bizə heç bir qurumdan cavab gəlməyib. Bir həftəyə gələcək. Fövqəladə Hallar Nazirliyinə müraciət edəndən sonra burada iş dayanmışdı. Nazirliyin nümayəndəsi gəldi, tikintiyə baxış keçirdi. O gedəndən sonra tikintiyə yenidən başladılar. Hasarı ordan sökmüşdülər, yenidən bərpa etdilər".

"Ərazidə 17 mərtəbəli bina tikiləcək. İndi baxırsan yoxdur, amma tikiləndən sonra gəlib, baxın görün, bizim vəziyyətimizi? İndi bağırırıq, səsimizi duyan yoxdur. Gərək sabah qəza baş versin, kimsə ölsün ondan sonra oyansınlar? Xahiş edirik, səsimiz olun. Səsimizi bir yerə çatdıraq. Toz-duman əlindən, maşınların səsindən evdə yaşaya bilmirik. Uşaqlarımızın oynamağa yeri qalmayıb", - deyə H.Məmmədova əlavə edir.

Sakinlərin sözlərinə görə, tikiləcək bina təhlükəsizlikdən əlavə, uşaqların oyun meydançasını da məhv edir: "Görün, necə gözəl yaşıllıq var? Onu kəsib bina tikmək istəyirlər. Ərazidə qəşəng park vardı. Tut ağacına baxın, dibini qazıblar, kökü üzdə qalıb. Aşır ağac. Belə ağacı böyütməyə illər lazımdır. Həm barından yeyirdik, həm kölgəsində sərinləyirdik. İndi ətrafını hasarlayıblar, bizi əraziyə buraxmırlar. Kimə deyək, kimə müraciət edək? Biz prezidentimiz və xanımından çox razıyıq. Xahiş edirik, bizim səsimizi onlara çatdırın ki, dördüncü mikrorayonda xaosdur. Bütün tikintini bura salıblar. Məhəllələrin də hamısında tikinti gedir. Yolun və parkın yarısını da götürüblər. Uşaqlar harada oynasın bəs..."

"Fidan" MTK-nın icraçı direktoru Ədalət Əsgərov sakinlərin iddiasına cavab olaraq, musavat.com-a bildirib ki, şirkət ərazini şəxsi mülkiyyət kimi alıb: "Ərazimiz 34 kvadratmetrdir. Qanunauyğun olaraq, 15 metr məsafədən sonra bizim qırmızı xətt verilib. O xətdən sonra 10 metr içəridə olmaqla, binadan binaya 25 metr məsafə olmaqla, Bakı Şəhər İcra Hakimiyyətinin sərəncamı ilə Fövqəladə Hallar Nazirliyinin sənədləri təsdiq olunub. Ərazidə 26 mərtəbəli, bir bloklu bina tikiləcək. Gördüyünüz hasarı da bizə verilən ərazidən bir metr içəri çəkmişik. Ərazidəki ağaclardan hansı tikintiyə düşsə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən aktlaşdırılacaq, ödəniş olacaq, sonra kəsiləcək".

**❑ Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**



# AST Telmanın möhtəşəm oteli xarabalığa çevrilib

**2009-cu ildə Riçard Gir, Şeron Stoun, Monika Belluççi, Paris Hilton kimi simaların qatıldığı, dünyanın ən dəbdəbəli oteli adı ilə qapılarını müştərilərin üzünə açan azərbaycanlı iş adamı Telman İsmayılovun "Mardan Palas" oteli bərbad vəziyyətdədir.**

Bütün dünyanı heyrətə gətirən 560 otaqlı möhtəşəm otel bu günlərdə xarabalığa çevrilmək üzərədir. Borclarına görə bağlanan oteldə hazırda yalnız 30 nəfərlik təhlükəsizlik əməkdaşı fəaliyyət göstərir.

Axar.az xəbər verir ki, bu barədə "Hürriyyət" müxbiri Səlim Uzun yazıb. Uzunun sözlərinə görə, 15 gün əvvələ kimi suları belə gəlməyən oteldə peyzaj təsvirlərinin demək olar ki, hamısı quruyub. Oteli əhatə edən bürünc rəngli barmaqlıqların böyük hissəsi oğurlanıb. Baş verən oğurluq hadisələrinə görə dəmir barmaqlıqlar sökülüb və anbara qoyulub.

Otelin nişanəsi sayılan əqrəb formasındakı əsas körpü və körpünün qanad hissəsində quraşdırılmış VİP kabinələr çökmək üzrədir. Otelin qarşısındakı məşhur çimərliyin vəziyyəti heç də fərqli deyil. Misirdən gətirilən, yandırmayan və yapışmayan xüsusiyyətlərə sahib 9 min ton qızıl rəngli qumdan demək olar ki, əsər-əlamət qalmayıb. Otelin ən dəbdəbəli hissəsi sayılan əsas girişdəki işıqlı hovuz boşaldılıb, pilləkən və hovuz ətrafındakı mərmərlərin əksər hissəsi baxımsızlıqdan saralıb. Əsas girişdəki ot örtüyü də uzun müddət sulanmadığı üçün quruyub.

Xatırladaq ki, "Mardan Palas"ın açılış mərasimi 25 milyon dollara başa gəlmişdi. Açılış mərasimində 151 jurnalist iştirak etmişdi. Açılış mərasimində iştirak edənlər arasında Qazaxıstan prezidenti Nursultan Nazarbayev də yer almışdı. Otelin özünün inşasına isə 1,5 milyard sərf olunmuşdu.

YENİ MÜSAVAT
N 146 (7035) 9 iyul 2018



# Ana ölümləri: dünyada və Azərbaycanda

## Cərrah-ginekoloq: "Qəysəriyyə doğuşdan 7 dəfə risklidir"

**Ötən il Azərbaycanda 21 ana ölümü hadisəsi baş verib. Bu məlumat Nazirlər Kabinetinin 2017-ci ildə fəaliyyəti haqqında hesabatında əksini tapıb. Bu ilin ilk 3 ayı ərzində isə 7 ana ölümü faktı qeydə alınıb. Bunu isə Doğuşa-yardım Komissiyasının sədri, Səhiyyə Nazirliyinin baş mama-ginekoloqu Sevinc Məmmədova deyib.**

O bildirib ki, baş verən ana ölümləri ilə bağlı 12 tibb işçisinə töhmət verilib, 1 nəfər isə həbs olunub. Baş mama-ginekoloq onu da qeyd edib ki, ötən il ümumilikdə ana ölümünə görə, 50-dən çox tibb işçisi inzibati tənbeh tədbirlərinə cəlb olunub.

Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasının ginekologiya şöbəsinin müdiri, doktor Turab Canbaxışovla müsahibələrindən birində qeyd edir ki, ana ölümlərinin başlıca səbəbi bütün dünyada olduğu kimi, təxminən 30- 40 faiz hallarda qanaxmalardan irəli gəlir: "Hamilə qadının vaxtı-vaxtında qadın məsləhətxanasına getməməsi, lazımı müayinələrdən keçməməsi, dinamik müşahidədə olmaması, doğuş üçün müvafiq doğum evini seçməməsi, doğum evlərinə çox gec və ağır vəziyyətdə daxil olması baş verən əksər ana və uşaq ölüm hallarının əsas səbəbi kimi göstərmək olar. İkinci səbəb isə əməliyyat sonrasında olan problemlərlə əlaqədardır. Ürək problemləri, tromboemboliyalar, amnion mayenin emboliyası ola bilər. Üçüncü yerdə isə əməliyyatdan sonrakı dövrdə olan infeksiyalar durur. Ancaq dünya praktikasında belə bir nəticəyə gəliblər ki, ümumiyyətlə ana ölümlərinin bütün dünyada - istər ABŞ olsun, istər Kanada, istərsə də Avropanın inkişaf etmiş ölkələri, əgər əvvəlcədən səbəblər bilinsə, müəyyən önləyici tədbirlər görülsə, ana ölümlərinin təxminən 48 faizinin qarşısı alına bilər".

Bəzən qadınlar normal doğuş problemlərindən qorxaraq rahat bilib qeysəriyyə kəsiyinə üstünlük verirlər. Cərrah-ginekoloq Nərmin Qəribova bildirir ki, normal doğuş zamanı dölün enişində və yaxud uşaqlıq boynunun açılmasında irəliləmə olmaması, doğuşun normaldan uzun davam etməsi halında, normal doğuş zamanı dölün ürək döyüntülərində dəyişkənlik olması, daha çox yavaşımaların olması, hansı ki, buna fetal stress deyilir, bəzən dölün yan mayesinin çox olması və yaxud göbək ciyəsinin öndə yerləşməsi ilə bağlı ani dölyanı maye axması ilə bərabər, göbək ciyəsinin uşaqlıq boynundan vaginaya sallanması, göbək ciyəsinin sıxılması durumunda qeysəriyyə əməliyyatı şərtdir. "Bundan başqa, doğuş gedişatı dövründə aşırı qanaxmanın olması, ciftin müəyyən bir hissəsinin uşaqlıq divarından ayrılması, dölə bağlı olan düzgün olmayan gəlişlər - sağrı gəlişi, transpers gəliş, yəni baş pozisyasından kənarda olan gəlişlər, uşaq çəkisinin çox olması, baş çanaq uyğunsuzluğu, yəni uşağın başının çanaq darlığına bağlı olaraq ananın doğum kanalından keçə bilməyəcək qədər böyük olması və yaxud uşaq başlığının normal olmayacaq şəkildə olması, çox döllü - əkiz və ya üçüz hamiləliklər qeysəriyyə olmalıdır. Anada uşaqlıq boynunu və yaxud vaginanı tutacaq qədər böyük şiş varsa, eyni zamanda bəzi aktiv infeksion xəstəliklər varsa, həmçinin, uşağın özünə bağlı qüsurlar, anomaliyalar, anaya bağlı olaraq daha öncə keçirilmiş, məsələn, vaginal estetik əməliyyat varsa, həmin hissədə normal doğum təkrar pozulmalara səbəb olduğu üçün qeysəriyyə əməliyyatına üstünlük verilməlidir. Ananın özünə bağlı bəzi problemlər, hətta hamiləlik zamanı ortaya çıxan ani təzyiq yüksəlişi, anada yanaşı gedən ürək qüsurları və ya başqa orqanlarda pozğunluqlar getdiyi zaman ana və dölün həyatını riskə atmamaq üçün qeysəriyyə əməliyyatı icra edilə bilir", -deyə cərrah-ginekoloq qeyd edir.

Maraqlıdır, qeysəriyyə əməliyyatının da ölüm riski var?

Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun elmi katibi, Səhiyyə Nazirliyinin Doğuşayardım Komissiyasının üzvü Leyla Məmmədova hesab edir ki, qeysəriyyə zamanı ölüm riski təbii doğuşdan 7 dəfə artıqdır. Ana ölümünə 27 faiz hallarda qanaxmalar, 9 faiz hallarda müxtəlif mamalıq, doğuş fəsadları, 3 faiz hallarda tromboemboliyalar, 11 faiz hallarda irinli septik xəstəliklər səbəb olduğunu deyən Leyla Məmmədova Azərbaycanda ana ölümünün ən çox rast gəlinən səbəbinin preeklampsiyalar olduğunu qeyd edir: "Preeklampsiyanın ilkin əlamətlərini görən kimi vaxtında müvafiq tədbir görməklə bunun qarşısını almaq olar. Bu, əsasən hamiləliyin ikinci yarısında meydana çıxır. Ümumdünya Səhiyyə Təşkilatının hesabatına əsasən, ana ölümlərinin 99 faizi əsasən inkişaf etməkdə olan ölkələrdə baş verir, qalan 1 faizi isə inkişaf etmiş ölkələrin payına düşür. Ana ölümünün göstəricisi hər 100 000 diri doğulana düşən ölümlərin sayı ilə ölçülür. İnkişaf etmiş ölkələrdə orta göstərici 16-dır, ancaq inkişaf etməkdə olan ölkələrdə bu rəqəm 230-dur. Bu, orta göstəricidir, bəzi ölkələrdə 1000, 500, 100 ola bilir. Azərbaycanda bu göstərici 2014-cü ildə hər 100 000 diri doğulana 14,6 olub. 1999-cu ildə bu göstərici 43,5, 2007-ci ildə 35,5 olub".

Həkim-ginekoloq son illər qeysəriyyə əməliyyatlarının sayının artmasından da danışıb: "İstər Azərbaycanda, istərsə də dünyanın bütün ölkələrində qeysəriyyə əməliyyatlarının sayı artır. Bunun obyektiv və subyektiv səbəbləri var. Subyektiv səbəb odur ki, əhalinin bir qismi qeysəriyyə əməliyyatı ilə olan doğuşların daha təhlükəsiz olduğunu zənn edirlər. Amma təcrübə və tədqiqatlar göstərir ki, bu, təbii doğuşdan 7 dəfə risklidir. Azərbaycanda qeysəriyyəyə ən çox rast gəlinən tibbi göstəriş uşaqlıq çapıqlarıdır. Yəni bir dəfə qeysəriyyə ilə ana olduqdan sonra ikinci uşağı dünyaya təbii doğuşla gətirmək çox risklidir. Lakin 3-cü səviyyəli doğuşa yardım müəssisələrində və açıq əməliyyatxana şəraitində bu mümkündür. Səhiyyə Nazirliyi tərəfindən qəbul edilmiş klinik protokolda qeysəriyyə əməliyyatına 5 istiqamətdə göstərişlər var. Bunlar həyati təhlükəli və həyati baxımdan təhlükəli olmayan qrupa bölünür. Əgər göstəriş bilavasitə qadının həyatı üçün təhlükəli deyilsə, bu halda qadın yazılı olaraq qeysəriyyədən imtina edə bilər, uşağa görə isə məsuliyyət öz üzərində olur. Lakin ananın həyati üçün təhlükəli göstərişlərdə qeysəriyyə kəsiyi konsiliumun qərarı ilə ana və ailənin razılığı olmadan əməliyyat icra oluna bilər".

**Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**



# Azərbaycanlı qız Türkiyədə şəlalədən yıxılıb öldü

**Türkiyəyə istirahətə gedən 27 yaşlı azərbaycanlı Məryəm Ömərova şəlalədən yıxılaraq dünyasın dəyişib. Oxu.Az Habertürk-ə istinadla xəbər verir ki, Türkiyənin Muğla bölgəsində Kabak Koyu turizm ərazisində olan şəlaləyə getmək üçün Məryəm Ömərova dağlıq ərazi ilə 2 kilometrə yaxın yol qət edib.**

Məqsədi Aladere şəlaləsinin yuxarı hissəsinə çatmaq olub. Şəlaləyə az qalmış Kabak Koyunda qayalıqdan düşən azərbaycanlı qadın həyatını itirib. 2 saat əməliyyatdan sonra qadının meyiti düşdüyü ərazidən götürülərək Fethiye dövlət xəstəxanasının morquna aparılıb.

Ərazinin bələdiyyə başçısı Hasan Karabulut açıqlamasında bildirib ki, Aladere şəlaləsindəki yaşanan hadisədə azərbaycanlı turistin həyatını itirməsi kədərlənir: "Şəlalənin olduğu əraziyə 1,5 saatlıq yol var. Bu yol çox təhlükəlidir. Turistlərz bu kimi təhlükəli qayalıqlara dırmaşmamağı tövsiyə edirik".

# Cəlilin intiharı



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**Dünən sosial şəbəkədə, canlı yayımda yazıçı Cəlil Cavanşirin intihar videosunu izləyənə qədər günüm o qədər gözəl keçmişdi ki... Ta ki, yazar əlinə kəsici alət alıb, damarlarını cızana, qanı tökülə-tökülə etirazını bildirənə qədər. Adətən belə xəbərləri "Yeni Müsavat" qəzetinin 16-cı səhifəsi üçün hazırlayıram: qeyri-adi, xoruz səsi eşitməmiş, təəccübləndirən, qan donduran...xarici xəbərlər olur bu səhifədə. Cəlilin intihara cəhd aktı bunların hamısının birgə toplusu idi. Cəmiyyətə etiraz edirdi, minlərlə dostunun qabağında ölümə cəhd edirdi, baxanların qanını soyudurdu...**

Yazarı şəxsən tanımıram, bir dəfə də olsun, üz-üzə gəlməmişik. Nə bir açıqlama, nə bir müsahibə, nə də bir dialoq. Amma məni o etiraz aktından daha çox ona rişxənd eləyələrin reaksiyası sarsıtdı. Biri yazdı, "tez elə, futbol başlayır", bir başqası "bu, bir şoudur" deyib ağıllı görünməyə çalışdı. Hamı çoxbilmiş, psixoloq, kriminalist oldu bir anda. Anındaca təhlil etdilər, proqnoz verdilər və "əhhh" deyib, əllərini yellədilər.

Bu, artıq onun neçənci cəhdiymiş. Əsas "arqument" bu oldu. Yəni, vəziyyəti qeyri-ciddi qəbul etmələrini bununla əsaslandırdılar. Halbuki elə məhz bu durum vəziyyətin nə dərəcədə kritik olduğunu göstərirdi. Yəni, adam dəfələrlə buna cəhd edib - sonlandırmağa ya imkan verməyiblər, ya cəsarəti çatmayıb. Ya vəlvələdən, ya zəlzələdən akt baş tutmayıb. Amma adam israrla davam edir. Psixoloji yardıma, dəstəyə ehtiyac duyduğu hər halından bəlli idi. Canlı yayıma gələn şərhləri həssaslıqla izləməsi göstərirdi hər şeyi. Dəstək axtarırdı, güc axtarırdı, gələn hər isti rəydən sonra əhvalı dəyişirdi, soyuq sözlər niyyətini daha da alovlandırırdı. Gözümüzün qabağında bir insan dramı yaşanırdı əslində.

Yadıma gənc yazar Mövludun intihar aktı düşdü. Xatırlayırsız? Səhər oyandıq və saytlarda 27 yaşlı gəncin intihar xəbərini oxuduq. Hamı bir-birini qınadı: niyə vaxtında dəstək olmadıq deyə. Halbuki zamanında insanlar bir-birini dinləsə, dərdə düşəndə yalnız qoymasalar, bütün bunlar baş verməz ki. Cəlil Cavanşir də əslində ona çalışırdı. Yanında adam olmasına, ona yardım əli uzadılmasına. Yəni, bu, nə ikiüzlülükdü axı? Adamlar öləndən sonra yalandan üz cırmalar, gözünüzün qabağında kimsə intihar edəndə rişxənd etmələr. Hansı sizsiniz? Qərar verin artıq.

Şou imiş... Reytinq yığırmış... Özünü göstərirmiş.... Ay camaat, xatırladıram, adam manıs deyil. Disk çıxarmayacaq. Yaxında konsert proqramı da yoxdur, toylara da getmir, filmi də vizyona girməyəcək. Yəni, reytinq qazanmaq üçün belə ucuz priyomlara ehtiyacı yoxdur. Sadəcə, hayqırırdı, yardım istəyirdi. Bəlkə bir şərhlik, isti bir cümləlik çıxış yolu var idi. Onu yazanda xəncərinizin qaşımı düşəcəkdi? Öz eqonuzu zəif bir insanın zəif anı üzərindən tətmin etmək də...sizin mənəvi intiharınız deyilmi?

Hərəkəti yanlış idi. Presedent yarada bilərdi. Tamam, intihar acizlikdi, zəiflikdi. Amma bir insan zəif olduğu üçün həqarətə uğraya bilərmi? Uğramalıdırmı? Bir insan bütün çarələri tükətdiyi üçün rişxənd obyektinə çevrilməlidirmi? Hamı problemlərə eyni cür sinə gərməyə, buna gücü çatmaya bilər. Amma bu, digərlərinə onu əzmək haqqı vermir, verməməlidir...

Türkiyədəki xəbər verilişlərində dəfələrlə bu sayaq mənzərələri görmüşük: kimsə binanın damına intihar etmək üçün çıxır, aşağıda onu izləyənlər manyakcasına bağırırlar: "At, at, at..." Bunu filmlərə də daşıyıblar. İzləyəndə insan dəhşətə gəlir. Sanki hindu qəbilələrindəki "Tanrılar qurban istəyir" aktı kimi... Bir nəfər mütləq ölməliymiş kimi...

Dünən Cəlil intihara cəhd edən dəqiqələrdə mən eyni mənzərəni gördüm. Sadistcəsinə, başqasının əzabından zövq alırcasına bağıranları, intihara təşviq edənləri heç unutmayacam. Siz də unutmayın.... Dünən gözümüzün qabağında bir insan faciəsi yaşanırdı. Bunu da unutmayın...

# Novruz bayramında doğulan dünya ulduzu -



# Qrizmann "Qızıl buts" alacaqmı...

## Fransa millisinin forvardının həyat hekayəsi

**İki il əvvəl "Avro-2016"-da Fransa yığmasının forvardı Antuan Qrizmann 4 qol, iki uğurlu ötürmə ilə bombardirlər sıralamasında yer almışdı. Xatırlayanlar bilir, Fransa yarımfinalda Rusiyada qrupdan çıxa bilməyən keçmiş dünya çempionu Almaniya üzərində 2:0 hesabı ilə qələbə qazandı və hər iki topun müəllifi Qrizmann oldu.**

"Qızıl buts" o çempionatda ona qismət olmadı. Rusiyada sona çatmaqda olan mundialda onun aktivində 4 qol var. Bu mundialda da onun ən yaxşı bombardir olmağa şansı var. Qarşıda Belçika ilə yarımfinal qarşılması var, sonra...

Qrizmann haqda yazının bu baxımdan maraqlı olacağını düşünürük.

**Futbolçu oğlu futbolçu...**

Antuan Qrizmann 1991-ci ilin 21 martında Lionun 70 kilometrliyindəki Makon şəhərində futbolçu ailəsində anadan olub. Hələ uşaq yaşlarından atası onu "Lion" klubuna baxışa aparsa da, Antuanı zəif fiziki göstəriciləri və sısqa görünüşünə görə kurslara qəbul etməkdən imtina ediblər. Fransanın digər futbol akademiyaları da Antuana "perspektivsiz" deyərək qapını göstəriblər. Təbii ki, futbol qapısını yox...

Atası naümid qalıb oğlunu özünün baş məşqçisi olduğu "Makon" klubuna yazdırır. "Makon" Fransanın ikinci həvəskarlar liqasında çıxış edirdi. Yalnız 13 yaşı olanda Qrizmann özünü geniş publikaya göstərmək şansı qazanır. 2005-ci ildə Qrizmann "Monpelye"nin heyətində "PSJ" klubunun gəncləri ilə yoldaşlıq görüşündə İspaniyanın "Real Sosyedad" klubunun seleksiyaçılarının diqqətini çəkir. Antuanı İspaniyaya-San-Sebestyana baxışa dəvət edirlər. Bir neçə həftəlik baxışdan sonra onu klubun akademiyasına qəbul ediblər. Beləcə, həyatını dəyişən İspaniya yolçuluğu başlayıb.

**İspaniya, oradan isə...**

Alman familiyalı, portuqal kökənli Antuan əslində ana uşağı idi və bu yaşda onun evi tərk etməsi özü üçün də, valideynləri üçün də asan deyildi. "Gecələr hərdən ağlayırdım, yata bilmirdim. Sən bu yaşda evi tərk etməyi başa düşə bilmirsən", - deyə, Antuan həmin günləri belə xatırlayır.



Antuan klubda bütün yaş dövründə oynayır və yalnız 2009-cu ildə əsas komandaya dəvət alır. Baş məşqçi Martin Lasarte 2009/2010-cu illər mövsümündə onu əsas komandaya cəlb edir. Klubun keçirdiyi 4 yoldaşlıq görüşündə Antuan 5 qol vuraraq özünün gələcəyə gedən yolunu açmış olub. Uruqvaylı məşqçi sonralar etiraf edib ki, Qrizmannla həmyerlisi Suares arasında oxşarlıq görüb. "İzah etmək çətindir, amma mənim seçimimin doğru olduğuna şübhəm yox idi. Mavi gözləri onu mələyə oxşadır, amma o əsl əzrayıldır".

**Dünyanın üç ən yaxşı oyunçusundan biri**

Klubun sağ yarımmüdafiədə oyunçu axtarışında olması Antuanın işinə yarayır. 2009-cu ilin 2 sentyabrında ilk dəfə rəsmi görüşdə "Real Sosyedad" formasını geyinən Qrizmannın qolu özünü çox gözlətmir. "Ueskoy"la görüşdə Antuan ilk qolunu vurur. "Real Sosyedad"da keçirdiyi ilk sezonda 39 oyunda forma geyən futbolçu 6 qol vurur. 2010-cu ilin aprelində o, "Real Sosyedad"la beşillik ilk professional müqaviləsini imzalayır.

Növbəti mövsüm Antuan üçün daha da uğurlu olur. O, İspaniya çempionatında "Elçe"yə qarşı görüşdə ilk "het-trik"ini edir. Həmin mövsüm ümumilkdə 14 qol vuran futbolçu La-Liqa da yalnız Kriştiano Ronaldo (22 qol ) və "Atletiko"nun hücumçusu Dieqo Kostadan (19) geri qalır.2014-cü ilin yayında Qrizmann "Real Sosyedad"la müqaviləni uzatmaq istəmir. Bir neçə gün sonra o, 30 milyon avro qarşılığında "Atletiko"ya transfer olunur. O, "Kordoba" klubu ilə qarşılaşmada ilk dublunu edir. Əvvəlki klubundan fərqli olaraq Qrizmann "Atletiko"da daha çox hücum mövqeyində oynayır. Bir neçə tur sonra klubun yeni transferi "Atletik" Bilbao ilə görüşdə "het-trik" edir. "Levante" oyununda da Qrizmann dublu ilə yadda qalır.

**Fransa millisində**

Antuan İspaniyada oynadığı üçün Fransa milisində diqqətdən kənarda qalır. O, 2010-cu ilin fevralında Qrizmann milli komandaya dəvət edilir. Ukrayna ilə görüşdə Antuan komandasının qələbə topunu vurur. 2010-cu ilin 7 iyununda Qrizmann Fransada keçirilən gənclər arasında Avropa çempionatına dəvət alır. Çempionatda iki qol vuran Qrizmann ilk kubokunu qazanır. 2013-cü il gənclər arasında Avropa çempionatının seçmə mərhələsində vacib oyun ərəfəsi Qrizmann və bir neçə komanda yoldaşı millidən qovulur. Cəza müddəti bir il nəzərdə tutulsa da, Antuan səhvlərini etiraf edir və artıq Fransanın əsas milli komandasına qayıdır.

2014-cü il martın 5-də o, Hollandiya ilə oyunda meydana çıxır. Paraqvayla yoldaşlıq görüşündə isə ilk qolunu vurur. Yamayka ilə görüşdə də qapıdan iki top keçirir.

Braziliyada keçirilən 2014-cü il mundialında dünya çempionatınada heyətə daxil edilən Qrizmann 5 oyunda millinin formasını geyinir.













Fransanın bir çox idman mütəxəssisləri Antuanın oyun stilinin Devid Bekhem və David Silvaya oxşadığını deyirlər. Qrizmann güclü texnikası, topla məharətlə davranışı ilə seçilir. Arıq bədəni onu daha da cəld edir ki, bu da rəqibləri üçün ciddi problemdir. Onun çox sürətli qaçışı və enerjisi əks-hücuma meyilli forvarda əlavə üstünlük deməkdir. Top onun ayağına düşdükdə dəqiq zərbələri var ki, bu da "Avro-2016"da təsdiqləndi. Antuanın uğur talismanı onun şortundakı bir şəkildir ki, bu, ona uğur gətirir.

❑ **Nazim Sabiroğlu, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 146 (7035) 9 iyul 2018

# Xoşbəxt olmaq üçün nə qədər pul lazımdır?

## Və yaxud xoşbəxtlik pulda yox, onun miqdarındadır...

**"Pulla səadət olmaz" sözü yüz illərdir hər cəmiyyətdə müzakirə edilsə də, hələ bunun doğru, yoxsa yanlış olması ilə bağlı dəqiq bir cavabımız yoxdur. Bəzi mütəxəssislər pulun xoşbəxtlik gətirdiyini deyirlər. Halbuki ancaq ildə 75 min dollara qədər (2010) pul bu xoşbəxtliyi yaşada bilir.**

Bəzi araşdırmalar bu miqdarda pulu özünüzə vaxt ayırmaq, ev məsrəfləri kimi problemləri həll etmək və zövqünüzə uyğun şeyləri almaq üçün xərclədiyiniz halda pulun xoşbəxtlik gətirdiyinə işarə edirlər. Purdue Universitetindəki psixoloqların pul və həyatdan məmnuniyyət arasındakı münasibətlə bağlı apardıqları bir araşdırmaya görə, insan ildə 95 min dollar miqdarında bir pul qazandığı zaman xoşbəxt ola bilir.

Bu araşdırma üçün 164 ölkədən təmsilçi nümunələri bir araya gətirildi. Çalışmada "gəlir doyumluluğu", yəni daha artıq pulun xoşbəxtliyi artıq yüksəltmədiyi nöqtə tapılmağa çalışıldı. İnsanın "yaşam dəyərləndirməsini" təhlil edən ümumi məmnunluq ilə duyğusal məmnunluq mövzuları ilə bağlı bir araşdırma aparıldı.

Araşdırmaçılar daha çox pulun insanı daha çox xoşbəxt etməyəcəyi nəticəsinə gəldilər. Daha doğrusu, insanın illik gəliri 95 min dollardan artıqdırsa, xoşbəxtlik dərəcəsi də aşağı düşür. Emosional məmnunluq isə nisbətən daha ucuz başa gəlir. Bunun üçünsə illik gəlirin 60 min dollar olması yetərlidir. Belə ki, illik gəlir 75 min dollara qədər artdığında neqativ duyğular daha da artmağa başlayır.

Təbii ki, bunda insanın harada yaşaması da böyük bir faktordur. 95 min dollarla Azərbaycandakı və Amerikadakı həyatımız bir-birindən çox fərqli olacaq. Belə ki, Qərbi Avropada daha çox pulun daha çox sıxıntı yaratdığı nöqtə 100 min dollar olduğu halda, bu miqdar Cənubi Amerikada 105 min dolardır. Ən yüksək gəlir doyğunluğu isə Avstraliya və Yeni Zelandiyada: 125 min dollar. Ən aşağı gəlir isə Cənubi Amerika və Qarib adaları: 40 min dollar.

Gəlir doyumluluğu təhsil səviyyəsinə görə də dəyişiklik göstərir. Səbəbi isə fərqli təhsil səviyyəsinə sahib fərdlərin fərqli xəyalları və sosial qarşılaşdırma parametrlərinə sahib olmalarıdır. Yəni pul əslində xoşbəxtliyə təsir göstərir, amma sadəcə, müəyyən bir nöqtəyə qədər. Pulun nə azı, nə də çoxu bizi xoşbəxt edir. Özümüzə uyğun şeyləri ala bilməmiz, ayın sonunu gətirə bilməmə dərdindən qurtulmamız və özümüzə vaxt ayıra bilməmiz üçün yetərli olan bir miqdarla xoşbəxt oluruq.

O zaman həmişə daha çox pul qazanmaq üçün yox, özümüzü xoşbəxt edəcək qədər pul qazanaraq xoşbəxt ola bilərik. Yəni, o məşhur məsəldə deyildiyi kimi, "pul məqsəd yox, vasitədir".



### Adam xoşbəxtdirsə, daha çox pul qazanır

Amma bir məqam da var ki, xoşbəxt insanlar daha çox pul qazanırlar. Bəs bu durumu necə izah etməli? Banker.az saytı bununla bağlı ilginc detalları üzə çıxarıb. Birincisi və ən önəmlisi xoşbəxt insanlar optimist xarakterə sahibdirlər:

Xoşbəxt insanlar həyatın onlara oxuduğu meydanlara qarşı getməyə və risk etməyə hazırdırlar ki, bu da gəlir əldə etmək üçün onlara geniş şans yaradır. Bundan əlavə, onlar öz uğursuz qərarlarına şəxsi məğlubiyyət kimi deyil, yeni bilik və təcrübə qazanmaq imkanı kimi baxırlar.

Xoşbəxt insanlar işdən daha az uzaqlaşmağa çalışırlar: sözsüz ki, xoşbəxt olmaq əhval-ruhiyyəyə təsir edir. Həyatından məmnun olan əməkdaşlar zamanlarının çoxunu işdə keçirir və nadir hallarda bülletenə çıxırlar.

İllinois Universitetinin apardığı araşdırmaya inansaq, xoşbəxt əməkdaşlar özünü bədbəxt hesab edən insanlardan 15 gün daha az evdə keçirir və 10 il daha çox yaşayırlar.

Qərbi Sidney Universitetinin iqtisadiyyat üzrə professoru Satya Paul yazır: "Sağlamlıqla bağlı özünü pis hiss etmək təbii ki, məhsuldarlığa və insanın iş qabiliyyətinə mənfi təsir edir ki, bu da gəlir səviyyəsinin enməsinə səbəb olur".

Xoşbəxt insanlar daha məhsuldardır: Varvik Universitetinin (Böyük Britaniya) alimləri xoşbəxtlik və məhsuldarlıq arasında əlaqənin olduğunu aşkar etdiklərini iddia edirlər. İqtisadiyyat professorları Andrey Osvald, Eugenio Proto və Daniel Sgroi təsadüfi seçmə yolu ilə təyin edilən insanlarla eksperiment həyata keçirmişlər və bu zaman belə məlum olur ki, özünü xoşbəxt hesab edən insanlar digərlərindən 12% daha çox məhsuldarlığa sahibdirlər.

Məhsuldar insan işdə müəyyən üstünlüklərə sahibdir. Rəhbər şəxs sözügedən əməkdaşın məhsuldarlığının fərqinə vardıqda onun iş mühitində inkişaf etməsi üçün şərait yaradır və əldə etdiyi əmək haqqını artırır.

Xoşbət insanlar daha yüksək effektivliyə sahibdirlər: "Xoşbəxtlik yoluxucudur. O, ilk olaraq həmkarlarınız arasında yayılır və daha sonra ən əsası müştəriləriniz də buna "yoluxur", - deyə "Bütün afrikalılar üçün zənginlik" kitabının müəllifi və "Grandeur Touch" şirkətinin biznes strategiyaları üzrə baş konsultantı Idowu Koyenikan deyir. Bu səbəbdən də xoşbəxt əməkdaşlar müsbət nəticələrə səbəb olur və bu da son nəticədə əmək haqqının artırılmasına səbəb olur.

Xoşbəxt insanlar problemi həll edir, onu yaratmır: "İnsanların əksəriyyəti heç nədən problem yaradır, iş yerindən, müdirdən, kolleqalarından gileylənir. Xoşbəxt insanlar isə əksinə, problemlərin həllini axtarmağa meyllidirlər" - lider keyfiyyətlərinin inkişafı üzrə təlimçi Lynda Talley deyib.

Xoşbəxt insanlar özlərinə yatırım edir: LexION Capital investisiya şirkətinin yaradıcısı və CEO-su Elle Kaplan deyir: "Xoşbəxt insanlar daha çox pul qazanır, çünki onlar daim özünü təkmilləşdirir, yeni biliklər qazanır və öz gələcəklərinə yatırım edirlər. Bundan əlavə, özünə sərmayə yatırdıqda xoşbəxtlik səviyyəsi də yüksəlir. Ola bilsin, insanın özü üçün edə biləcəyi ən yaxşı şeylərdən biri də budur ".

### İnsanlar pulu özlərinə yox, başqalarına xərcləyəndə xoşbəxt olurlar

Araşdırma nəticəsində pulla, daha doğrusu, pul xərcləməklə xoşbəxtlik arasında maraqlı bağlılıq tapılıb. Məlum olub ki, adamlar pulu özlərindən çox, başqalarına xərcləməyi xoşlayırlar. Bu barədə Britaniyanın "Elm" jurnalında çıxan məqalədə danışır. Məqalənin müəlliflərindən Elizabet Dan Kanadadakı Britaniya-Kolumbiya Universitetində psixologiya elmləri üzrə dosentdir. O və həmkarları müəyyən ediblər ki, adamlar pul xərcləməyi, pul qazanmaq qədər vacib bilirlər.

Araşdırma zamanı məlum olub ki, az pul alıb, çox pul xərcləyən adamlar daha xoşbəxt görünürlər, nəinki çox pul alıb, az xərcləyənlər. Elizabet Dan: "Eksperiment zamanı məni ən çox təəccübləndirən o oldu ki, iştirakçıları aldıqları pulun miqdarı yox, o pulu necə xərcləmələri xoşbəxt edir".

Sosial elmlər üzrə mütəxəssislər deyirlər ki, pul özlüyündə adamı xoşbəxt etmir. 70-ci illərin sonlarında psixoloq Filip Brikmanın məşhur araşdırması da göstərib ki, lotereyada çoxlu pul udan adamlar udmayanlardan xoşbəxt olmurlar. Çünki çoxlu pul udanlar adi hadisələrdən o biri adamlar qədər zövq ala bilmirlər.

Amma son vaxtlar lotereya qaliblərı ilə aparılan araşdırmalar reaksiyanın fərqli olduğunu göstərib. Uduşlu lotereya sahibləri həm daha varlı, həm də daha xoşbəxt olurlar. Elizabet Dan deyir ki, araşdırma aparanlar pul udanların pulu necə xərclədiyini görsələr, fərqi başa düşərlər: "Lotereyada pul udan pulu ətrafındakılara xərcləyirsə, məsələn, ailəsini yaxşı bir səyahətə aparırsa, ya da başqa bir şey edirsə, doğrudan da əvvəlkindən xoşbəxt ola bilər.

Bəs, niyə pulu başqasına xərcləmək adamı daha xoşbəxt edir? Dan bunu dəqiq bilmir, amma məsələni bəzi faktorlarla izah edir: "Biz hesab edirik ki, pulu başqasına xərcləməyin öz xeyri var, adam özü haqqında yaxşı fikirdə olur. Üstəlik, pul xərclədiyin adamla münasibətin yaxşılaşa bilər. Bu həm də başqalarına sizi başqa rakursda görməyə imkan verir və s".

Elizabet Dan deyir ki, onların araşdırması təkcə lotereya qaliblərini yox, ümumiyyətlə, xoşbəxtliyin mahiyyətini başa düşməyə imkan verir.

### Qadınlar xoşbəxt olmaq üçün daha çox pul istəyir, nəinki kişilər

Zərif cinsin nümayəndələri üçün ildə azı 100 min kifayət edirsə, kişilər 90 minlə də xoşbəxt ola biləcəklərini düşünürlər.

Yüksək təhsilli insanlarda isə bu rəqəm (115 min dollar) təhsil almayanlarla (70-80 min dollar) müqayisədə daha çoxdur.

Araşdırmaya rəhbərlik edən Endryu Cebb isə hesab edir ki, pul həqiqətən də insanı xoşbəxt edə biləcək amillərin ancaq biridir. Axı pul adətən müəyyən tələbatları ödəmək üçün lazımdır. Lakin onu artırmaq hissi hər gün daha da böyüyür. "İnsanlar özlərini daha zənginlərlə müqayisə edir, onlara paxıllıq edir və yenə narazı qalırlar. Nəticədə isə heç bir xoşbəxtlikdən söz gedə bilməz".

### Pul xarakterə elə təsir edir ki... xoşbəxt olmaq çətinləşir

BBC-nin hazırladığı materiallardan isə aydın olur ki, pul insanın xarakterinə elə təsir edir ki... bəzən heç xoşbəxt olmağa da imkan vermir. California Universitetində aparılan başqa bir araşdırmada isə "Titanikdə olsaydım, xilasetmə gəmilərinə minməq haqqı olan ilk insanlardan biri mən olmalıydım" ifadəsinə zənginlərin daha çox səs verdikləri məlum olub. Bundan başqa zənginlərdə səhvini qəbul etməmək və hər işdə yaxşı olduqlarını düşünmək meylinin daha güclü olduğu müəyyən edilib.

Başqa bir araşdırmada isə fərqli gəlir səviyyəsi olanlardan ibarət qrup üzvlərinə 10 dollar verilib və bunun nə qədərinin xeyriyyə təşkilatlarına bağışlanacağı nəzərdən keçirilib.

Gəlir səviyyəsi daha az olanların daha çox yardım etdikləri müşahidə edilib. Lakin bu insanlar bu sınağa qatılmadan əvvəl zəngin olublar. Bəlkə də onları belə davranmağa vadar edən zəngin olmaqları deyil, onlar bəlkə də bu davranışları sayəsində zəngin olublar.

Bəs xeyriyyə təşkilatlarına edilən ianələr mövzusunda vəziyyət necə idi? Klassik araşdırma onu göstərir ki, ən kasıblar və ən varlılar orta təbəqəyə nisbətən daha çox ianə verirlər.

ABŞ-da xeyriyyə təşkilatlarına edilən orta ianə nisbəti gəlirin 2,3 faizi səviyyəsində müşahidə edilir. Gəliri 300 min ABŞ dollarını ötən 2 faizlik kəsimdə isə bu nisbət 4,4 faiz təşkil edir.

Bostonda aparılan bu araşdırma zənginlərin orta təbəqənin insanlarından nə daha çox, nə də daha az səxavətli və xeyriyyəçi olduğunu göstərir. Sadəcə, yuxarıdakı zənginlər çox güman ki imkanları çatdığı üçün daha çox ianə verə bilirlər.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 146 (7035) 9 iyul 2018



## Qaçan tısbağası 3 il sonra geri qayıtdı

**Estoniyanın cənubunda yerləşən Vilyandi şəhər sakininə 3 il əvvəl yanından qaçan tısbağanı geri qaytarıbar. Bu haqda yerli nəşr "Sakala" xəbər verib.**

Reymo Ryaets 2015-ci ilin 3 iyulunda Fernando adlı təsbağasına Estoniya yayını göstərmək üçün onu göl qırağına aparıb. Gəzinti zamanı Fernando qumda çirklənib və sahibi onu göldə çimizdirmək istəyib. Amma suya düşən tısbağa sahibinin əlindən çıxaraq göldə üzməyə başlayıb. Eston kişi nəticəsiz olaraq üç il boyunca tısbağasını axtarıb. "Yaz vaxtı mən göl qırağına onu axtarmağa gəlirdim. Çünki bilirdim ki, günəşli havalarda tısbağalar gün altında qızınmağı sevirlər" bunu da eston deyib.

28 iyunda isə yerli balıqçılardan biri Fernandonu itdiyi yerdən 300 metr aralıda tapıb. İnternet vasitəsilə heyvanın sahibini tapıb və ona qaytarıb. Sahibinin sözlərinə görə, 3 il ərzində Fernando böyüyüb və hazırda tam sağlamdır. Sahibi eyni zamanda deyir ki, ondan tez-tez aradan bu qədər müddət keçməsinə baxmayaraq, Fernandonu necə tanıya bildiyini soruşurlar. Onun sözlərinə görə, heyvanın xüsusi naxışı və bəzəyi var. Bundan başqa, Ryaets onu davranışlarından tanıyıb: "Fernando çox sakitdir. Üç illik azadlıq onu heç dəyişməyib".

# Siqaret çəkənlər kor ola bilər

**Britaniya alimləri aşkar ediblər ki, siqaretçəkmə korluğun yaranmasına səbəb ola bilər. Statistikaya görə, siqaretçəkənlər bu zərərli vərdişdən asılı olmayan adamlarla müqayisədə görmə qabiliyyətini dörd dəfə çox itirirlər.**



Tütün tüstüsündəki çoxsaylı kimyəvi komponentlər göz üçün təhlükə yaradır. Onlar gözdə bioloji dəyişikliyə mənfi təsir göstərir. Tədqiqata görə, siqaretçəkənlərdə katarakta tutulma üç dəfə, treoid oftalmopatiya riski səkkiz dəfə yüksəkdir. Həmçinin onlarda quru göz sindromunun yaranma ehtimalı çoxalır. Nikotin insanın rəng duyumuna da mənfi təsir göstərir. Gündə bir qutudan çox siqaretçəkən adamın yaşıl və qırmızı çalarları ayırd etməsində problem ola bilər. Tütün məmulatından tam imtina etdikdən sonra insanın görmə kanalının tam bərpası üçün ən azı on il vaxt lazım olur.

# 4-cü dəfə görüşəndən sonra... əsl sevgi yaranır

**Mütəxəssislərə görə, gerçək eşq ilk baxışda deyil, dördüncü görüşdən sonra meydana gəlir. Elm adamlarının iddiasına görə, ilk görüşdə insan şüuru həmsöhbətin "zehni portretini" çəkər, sonra analiz edib, əldə edilən nəticələri yenidən gözdən keçirər. Bundan sonra insan qarşısındakının davranışını daha dərindən qiymətləndirməyə başlayar. İnsanların müəyyən dərəcədə bir-birlərini anladıqları və müəyyən miqdarda ortaq təcrübə topladıqları dördüncü və ya beşinci görüşdə psixoloqlara görə, insanlar arasında eşq olaraq xarakterizə edilə bilən bir duyğu meydana gəlməyə başlayar. Mütəxəssislər gerçək bir duyğunun əmələ gəlməsi üçün bir-birlərinin şəkillərini görmənin və mesajlaşmanın insanlara yetərli olmadığını söyləyir. Çünki elm adamlarının söylədikləri kimi bu vəziyyətdə beyin həmsöhbət haqqında yetərli məlumat əldə edə bilməz. Psixoloqlara görə, internet vasitəsilə tanış olmaq, insanların həqiqətən aşiq olmalarını təmin edə bilməz.**






## Polisdən xahiş etdi ki... arvadını öldürməməsi üçün onu həbs etsinlər

**Vladivostok sakini yerli polislərdən onu saxlamağı və polis bölməsinə aparmağı xahiş edib. O, polislərə bildirib ki, arvadını öldürmək istəyir. Buna görə də öncədən həbs olunsa, daha yaxşı olar. Lenta.ru saytı xəbər verir ki, bu haqda hüquq-mühafizə orqanlarından xəbər ediblər. Polis bölməsindəki növbətçi bildirib ki, zəng edən içkili vəziyyətdə olub. Daha sonra polis bölməsinə onun həyat yoldaşı zəng edərək deyib ki, gerçəkdən də əri onu bıçaqla öldürməklə təhdid edib. Hadisə yerinə gələn polislər öz vəzifələrinin öhdəsindən gəliblər və hadisəni araşdırmaq üçün kişini polis bölməsinə aparıblar.**

Ölümlə təhdid etmə şikayəti əsasında ərə qarşı cinayət işi açılıb.




**QOÇ** - Ətrafınızda olan insanlar nə qədər səmimi davranarsa, günün ümumi mənzərəsi bir o qədər ürəyinizcə olacaq. Bu səbəbdən də ünsiyyətdə olduğunuz hər kəsin xoşrəftar olması vacibdir.

**BUĞA** - Olduqca rəvan gündür. Ulduzlar müdafiənizdə durduğundan qarşıya qoyduğunuz ədalətli məqsədləri reallaşdıracaqsınız. Şəxsi büdcənizdə müəyyən artımlar da gözlənilir.

**ƏKİZLƏR** - Ümumi məziyyətlərinə görə təzadlı bir gün yaşayacaqsınız. Həm xoş, həm də müəyyən qədər gərgin məqamların daşıyıcısı olacaqsınız. Tərəfinizi saxlayanlara dönük çıxmayın.

**XƏRÇƏNG** - Bəxtinizdə əsl biznes günü durur. İştirakçısı olduğunuz hər bir proses ürəyinizcə olacaq. Yeni təkliflərə laqeyd yanaşmayın. Saat 16-19 arası sevindirici hadisələrin şahidi olacaqsınız.

**ŞİR** - Risk etməyə dəyməz. Çünki bu təqvimdə qeyri-ənənəvi fəaliyyətlə məşğul olmaq uğurlu deyil. Yaxşı olar ki, əsas vaxtınızı ürəyinizə yaxın olan şəxslərlə birlikdə keçirəsiniz.

**QIZ** - Təxminən saat 15-ə qədər bəzi xoşagəlməzliklərlə rastlaşma ehtimalınız var. Ələlxüsus da qarşılıqlı münasibətlərdə ehtiyatlı olmalısınız. Sonrakı saatlar nisbətən sakit ötüşəcək.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvimdə sürprizlərlə dolu saatlar yaşayacaqsınız. Amma şəxsi işlərinizə müdaxilə edən adamlardan uzaq olmağa çalışmalısınız. Özünüz də yalan vədlər verməyin.

**ƏQRƏB** - Ulduzların düzümü gün ərzində maddi durumunuzun xeyli yaxşılaşacağını bəyan edir. Günün ikinci yarısı isə bu istiqamətdə xüsusilə əlverişlidir. Aldığınız dəvətlərdən imtina etməyin.

**OXATAN** - Astroloji göstəricilərə inansaq, bu gün hansısa əlamətdar bir hadisənin şahidi olmalısınız. Odur ki, belə sürprizlərə hazırlaşın. Sağlamlığınıza diqqət yetirməyi də unutmayın.

**OĞLAQ** - Astroloji göstəricilər sevgi dolu bir gün yaşayacağınızı bəyan edir. Qarşı tərəfin tələblərinə ədalətli yanaşın. Bu təzadlı təqvimdə dedi-qodudan uzaq olun.

**SUTÖKƏN** - Özünüzü tənha hiss etməyin. Yoxsa günaha batarsınız. Ən azı ona görə ki, sizə qarşı rəğbət bəsləyənlər az deyil. Fikrinizi dağıtmaq üçün nahardan sonra gəzinti və qonaqlıqlarda olun.

**BALIQLAR** - Təzə xəbərlər eşidəcəyiniz gözlənilir. Bu, yeni təklif və ya dəvətlər şəklində də ola bilər. Hər halda, hər üç amilə hazır olmalısınız. Axşama yaxın münasibətlərdə ehtiyatlı olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qızlar daha ağıllıdır, nəinki oğlanlar

**ABŞ-ın Missuri ştatının alimləri qızların intellekt cəhətdən oğlanlardan üstün olduğunu sübut ediblər. Alimlərin araşdırmasına görə, əqlin inkişafı üçün qadınların kişilərə nisbətən daha çox imkanları var. Eksperiment zamanı qız və oğlanların beyinlərinin müxtəlif hissələri fəaliyyətdə olan zaman tədqiq olunub. Araşdırmaların nəticələri göstərib ki, təcrübədə təmsil olunan 70 faiz ölkələrdə qızların qavrama qabiliyyəti daha yüksəkdir. Böyük ehtimalla, bu, beynin fəaliyyətinə cəlb olunan hüceyrələrin sayı ilə bağlıdır. Belə ki, qızlarda bu 7 faiz, oğlanlarda isə 4-5 faiz olub.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100